

## Azərbaycanda xarici diplomların tanınması qaydası dəyişdi

9

# Şarl Mişel

## Prezident İlham Əliyevə zəng edib



2

Səs
№ 209 (6409) 17 noyabr 2021-ci il. Qiymәti 40 qәpik

# DİRÇƏLİŞƏ APARAN YOL



8

## "Bölgədə yaşanan gərginlik Ermənistanın növbəti hərbi-siyasi təxribatıdır"



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi son günlər Ermənistanın sərhəddə törətdiyi təxribatlar barədə məlumat yayıb. AZƏRTAC məlumatı təqdim edir: "Son günlərdə Ermənistan tərəfindən məqsədyönlü təxribatların törədildiyi müşahidə edilir. Bu, Ermənistan...

7




## Rus KQB-sinə işləyən meydan liderləri: Nemət Pənahlıdan şok faktlar!

## "Ermənistana məxsus xeyli sayda sursat ələ keçirilib"



7

# Messi Braziliyaya qarşı oynayacaq?



Futbol üzrə Argentina millisinin futbolçusu Lionel Messi DÇ-2022-nin seçmə mərhələsində Braziliyaya qarşı oynaya biləcək. Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, bu barədə yığmanın baş məşqçisi Lionel Skaloni...

16



## DTX sərhəddəki vəziyyətlə bağlı yalan məlumat yayanlara XƏBƏRDARLIQ EDİB

12



## Sosial şəbəkələrdə cinayət hadisələri niyə baş verir? - KİMDİR GÜNAHKAR

10

# "Bu gün bizə ən çox dəstək verən yenə də qardaş Türkiyəmizdir"




**"İkinci Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz Qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır. Çünki biz bu dəstəyi hiss edərək, onun sözlərinə qulaq asaraq özümüzü daha da güclü hiss etdik". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə çıxışında bildirib.**

Dövlət başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın söylədiyi fikirləri xatırladıb: "Cümhurbaşqanı demişdir ki, Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır və bu, bizə əlavə güc verdi. Bu, bəzi qüvvələri - Ermənistan himayədarlarını bu savaşdan kənarda tutdu və bizə imkan verdi ki, biz bu şərəfli missiyamızı yerinə yetirək". Əlbəttə ki, 44 günlük Vətən müharibəsində Türkiyə qardaş, dost ölkə olaraq Azərbaycanın yanında oldu. Tarixin sınaqlarından daim uğurla çıxan Azərbaycan-Türkiyə birliyi son zamanlar cərəyan edən hadisələr fonunda bir daha sarsılmaz olduğunu nümayiş etdirdi. Vətən müharibəsində bütün dünya dövlətləri sarsılmaz birliyin bariz nümunəsini gördü və 44 günlük müharibədə Türkiyə mənəvi və diplomatik dəstəyini göstərərək dünyaya Türkiyə Azərbaycanın yanındadır, mesajını verdi. Bütün dünya bir daha gördü ki, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır və əbədidir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatıb.

## "TARİXİ ƏDALƏTİ BƏRPA ETDİK, BEYNƏLXALQ HÜQUQU BƏRPA ETDİK, MİLLİ LƏYAQƏTİMİZİ BƏRPA ETDİK"

Azərbaycan bu günlərdə Zəfər Gününü Qələbəmizin birinci ildönümünü qeyd etdi. "Biz təxminən 30 illik işğala son qoyduq. Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi və kağızda qaldığı qətnamələri yerinə yetirdik, icra etdik. Tarixi ədaləti bərpa etdik, beynəlxalq hüququ bərpa etdik, milli ləyaqətimizi bərpa etdik. Bu Zəfər tarixi əhəmiyyət daşıyır", - deyə Cənab Prezident bildirib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ölkəmizin iqtisadi gücü, ordumuzun gücü, xalq-iqtidar birliyi, xalqın qələbə əzmi bu qələbə tarixinin yazılmasında müstəsna rol oynadı. "Biz öz torpağımızda vuruşurduq, qan tökürdük, şəhidlər verirdik. Bizim başqa ölkələrin torpağında heç vaxt gözümüz olmayıb və İkinci Qarabağ savaşının nəticələri bunu göstərir", - deyən Cənab Prezident bildirib ki, müharibə dayanan gün artıq bütün atışmalara, bütün xoşagəlməz hallara son qoyuldu: "Müharibənin ilk günlərindən Mən açıq bəyan edirdim ki, əgər Ermənistan bizə torpaqlarımızdan öz qoşunlarının çıxarılma tarixini, təqvimini verərsə, biz hər an həmin müharibəni dayandırmağa hazırıq və sözümüzə əməl etdik".

44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törətdi. Döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirərək, dinc sakinləri qətlə yetirdi.

## "XARIBÜLBÜL" TÜRK DÜNYASI ÜÇÜN ZƏFƏRİN MÜJDƏÇİSİ OLDU

Vətən müharibəsində qazandığımız Zəfər əlbəttə ki, bütün dünyanın marağında oldu. Azərbaycanın hərbi taktikası, iyirmi birinci yüzilliyin müharibəsini aparması dünya ölkələri tərəfindən öyrənilir. Cənab Prezident bildirib ki, 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kəndi işğalçılardan azad etdik və yüzlərlə şəhər və kənd artıq sülh prosesi nəticəsində azad edilmişdir və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir.

Bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində abadlıq-quruculuq işlərinə başlanılıb. Türkiyə bütün müharibə dövründə Azərbaycanın yanında olduğu kimi, tikinti-quruculuq, abadlıq-bərpa işlərinin sürətlə aparıldığı bir zamanda da Azərbaycanın yanındadır. "Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı azad edilmiş torpaqlara iki dəfə səfər edib", - deyən Cənab İlham Əliyev iyun ayında Şuşaya və bu yaxınlarda - oktyabr ayında Füzuli və Zəngilana səfər edərkən bu ərazilərin dağıdıldığını əyani şəkildə gördüyünü bildirib: "Bu bölgələrin - Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün bu gün bizə ən çox dəstək verən yenə də qardaş Türkiyəmizdir. Türkiyənin bir çox şirkətləri bu gün bizim üçün çox önəmli infrastruktur layihələrində çalışırlar, - körpülər, tunellər, yollar, dəmir yolları, elektrik stansiyaları, hava limanları, - bütün bu işlərdə fəal iştirak edirlər".

Türkiyə və Azərbaycan prezidentlərinin Füzuli Beynəlxalq Hava Limanının açılışında birgə iştirakı, Zəngilanın Ağalı kəndində keçirilən rəsmi mərasim iki qardaş ölkənin dostluğunun təzahürüdür. Füzuli Hava Limanının inşasında Azərbaycan şirkətləri ilə yanaşı, 12 türk şirkəti də iştirak edib. Cənab Prezident hazırda Türkiyə şirkətlərinin Zəngilan Hava Limanının inşasında iştirak etdiklərini və bizim digər layihələrimizdə iştirak edəcəklərini də diqqətə çəkib.

Əlbəttə ki, Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Türkiyə Prezidentin qeyd etdiyi kimi, Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.

## "MƏNİM SEVİNCİMİ İKİQAT EDƏN ODUR Kİ, BU ALİ ORDENİ MƏNƏ TÜRK ŞURASINA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI TƏQDİM EDİRLƏR"

Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim etməsi də dövlət başçımızın rəhbərliyi ilə otuz ilə yaxın davam edən işğala 44 gündə, qısa müddətdə son qoyulmasıdır. Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının bununla bağlı qəbul etdiyi Qərarda deyilir: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir". Zəfərin əldə olunması bütün türk dünyası üçün böyük əhəmiyyətə malikdir. "Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir", - deyən Azərbaycan Prezidenti bildirib ki, Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər: "Onların imzası ilə və əziz Qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir. Qeyd edilir ki, bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır".

***ZÜMRÜD BAYRAMOVA***



# Şarl Mişel Prezident İlham Əliyevə zəng edib

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Söhbət əsnasında Prezident Şarl Mişel Ermənistan-Azərbaycan sərhədində baş vermiş hadisələrlə bağlı narahatlığını ifadə edib. Sərhəddə cərəyan edən hadisələrlə bağlı Şarl Mişelin müraciətinə cavab olaraq Prezident İlham Əliyev bildirib ki, dəfələrlə Ermənistan tərəfi Şuşa, Laçın, Kəlbəcər istiqamətində hərbi təxribatlara əl atıb və Ermənistanın son genişmiqyaslı hücumu bu gün baş verib.

Dövlətimizin başçısı Azərbaycan tərəfdən yaralıların olduğunu qeyd edərək, Ermənistanın təxribatlarına adekvat cavab verildiyini vurğulayıb. Prezident İlham Əliyev yaranmış vəziyyətə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü bildirib. Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

İstanbulda noyabrın 12-də keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) VIII Zirvə Görüşü Türkiyə kütləvi informasiya vasitələrinin baş xəbəridir.

# Dünya mətbuatında Prezident İlham Əliyevə

# Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi geniş işıqlandırılıb

Belə ki, Anadolu Agentliyi, "TRT Haber", "NTV", "CNN türk", "Haber türk", "Haber global", "A haber" telekanalları, eləcə də digər media qurumları VIII Zirvə Görüşünün mühüm hissələrini, eləcə də Prezident İlham Əliyevin toplantıdakı çıxışını, həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən dövlətimizin başçısına Türk Dünyasının Ali Ordeninin təqdim edilməsini canlı yayımla nümayiş ediblər.

Telekanallar nüfuzlu ekspertlərin şərhləri ilə ictimaiyyəti daha geniş məlumatlandırıblar. Anadolu Agentliyi Türk Şurasının VIII Zirvə Görüşünə infoqrafika həsr edib.

Türkiyə qəzetləri 13 noyabr buraxılışlarında da Türk Şurasının VIII Zirvə Görüşünə geniş yer ayırıb. "Sabah" qəzeti bu mövzunu "Türk dünyası artıq daha güclüdür" sərlövhəsi ilə baş xəbər olaraq oxuculara çatdırıb. "Hüriyyət" qəzetinin təqdim etdiyi "İstanbulda türk mövqeyi" sərlövhəli manşet yazı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi və üzv ölkələrin liderlərinin birgə fotoları ilə nəşr olunub. Mövzunu "Dünyaya mesaj: Türk birliyi" sərlövhəsi ilə təqdim edən "Türkiyə" qəzeti də eyni fotoları manşet materialında istifadə edib. "Akşam" qəzetinin ana səhifəsində yer alan "Günəş yenə şərqdən doğacaq" başlıqlı məqalədə Türk Şurasının VIII Zirvə Görüşündə müzakirə olunan məsələlər və qərarlar geniş şəkildə oxuculara çatdırılır. "Təqvim" qəzeti isə oxucuların diqqətini daha çox qurumun adının dəyişdirilməsinə cəlb edərək mövzunu "Böyük təşkilat" adı ilə təqdim edib.



















Məqalələrdə və ekspert rəylərində xüsusi olaraq diqqətə çatdırılır ki, Qarabağ Zəfərindən sonra türk dövlətlərinin liderləri yaranmış yeni əməkdaşlıq şansını yüksək dəyərləndirirlər. Hansı prizmadan baxılsa, Azərbaycan Türk Şurasına sədrliyi dövründə böyük uğurlar qazanıb. Təşkilatın sıraları genişlənib, dünyadakı nüfuzu artıb, böyük bir coğrafiyada kompleks inkişaf reallığı meydana çıxıb. Əsas prinsip budur ki, qarşıdakı dövrdə bu dinamikanın yüksəlişi qorunmalıdır. Diqqətə çatdırılır ki, Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, həm Türkiyə, həm də Orta Asiya bölgəsi üçün xüsusi əhəmiyyət daşıyır. Bu dəhliz türk dünyasının bütün sahələr üzrə əlaqələrinin genişlənməsi və inteqrasiya baxımından böyük gücə malik olacaq.

Türkiyə mediası yazır ki, Türk Şurasının adının Türk Dövlətləri Təşkilatı adlandırılması da qurumun gələcək fəaliyyətində cəlbediciliyi artıracaq. Məhz bu məntiqlə də "Yeni Birlik" qəzeti "Türk Dövlətləri Təşkilatı" adı ilə dərc etdiyi manşet yazının yerləşdiyi nəşrin ana səhifəsinə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi və üzv ölkələrin liderlərinin birgə fotolarını əlavə edib.

Bundan başqa Moldovanın xəbər portalları da Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi ilə bağlı məqalələr dərc ediblər. Belə ki, Moldovanın noi.md, dosarmedia.md, tribuna.md və digər portallarında dərc olunan məqalələrdə qeyd olunur ki, Ali Orden Prezident İlham Əliyevə noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim edilib.

Məqalələrdə bildirilir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklifi ilə İlham Əliyevin böyük şərəflə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında qərar qəbul edib.

Məqalələrdə, həmçinin Rəcəb Tayyib Ərdoğanın Ali Ordenin təqdimatında çıxışı da yer alıb. Türkiyə Prezidentinə istinadla qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirib. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olub.

Ardı Səh. 4

Əvvəli Səh. 3

# Dünya mətbuatında Prezident İlham Əliyevə

## Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi geniş işıqlandırılıb

Qırğızıstanın “goldenbridgenews.com” portalı İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünün keçirilməsi ilə bağlı AZƏRTAC-ın rus dilində xəbərlərini yayımlayıb. Belə ki, portal Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbirdəki çıxışını tam olaraq yerləşdirib.

Bildirilir ki, Ali Orden dövlətimizin başçısına noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim edilib.

Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının bununla bağlı qəbul etdiyi qərarda deyilir: “Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə “Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir”. Materialda bildirilir ki, qərarı Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının
















Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev imzalayıblar. Qırğızıstanın “turktoday.info” portalı da İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü haqqında yazıb.

Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin Zirvə Görüşündəki çıxışı tam olaraq yer alıb.

Portal “Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim edilib” sərlövhəli məqaləni də dərc edib. Bildirilir ki, Ali Orden dövlətimizin başçısına Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim olunub və Türkdilli Ölkələrin Dövlət Başçıları Şurası bununla bağlı qərar verib.

Ukraynanın xəbər portalları Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi ilə bağlı məqalələr dərc edib.

Ukraynanın lb.ua, asmedia.kiev.ua və digər portallarında dərc olunan məqalələrdə Prezident İlham Əliyevə Ali Ordenin noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim edildiyi qeyd olunur.

Bildirilir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklifi ilə İlham Əliyevin böyük şərəflə “Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında qərar qəbul edib.




Məqalələrdə, həmçinin Rəcəb Tayyib Ərdoğanın Ali Ordenin təqdimatında çıxışı da yer alıb. Türkiyə Prezidentinə istinadla qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirib. Qarabağın azadlığının rəmzi olan “Xarıbülbül” türk dünyası üçün Zəfərin müjdəçisi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi Misir mətbuatının diqqət mərkəzində olub.

Misirin nüfuzlu “Cümhuriyə və “Əl Masr Əl Yom” qəzetləri, “Əl Ğad”, “Əl Diplomasi”, “Yeni Dünya xəbərləri” portalları, həmçinin “Asia Əl Yom” agentliyinin saytında yayımlanan xəbərlərdə qeyd olunub ki, Ali Orden dövlətimizin başçısına noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim edilib.

Xəbərdə diqqətə çatdırılıb ki, Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının bununla bağlı qəbul etdiyi Qərarda deyilir: “Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə “Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında qərar qəbul edib”.

Rumıniyanın nüfuzlu “News24hours” xəbər portalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi barədə məlumatı oxucularının diqqətinə çatdırıb.

Onlayn nəşr xəbər verir ki, Ali Orden dövlətimizin başçısına noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim edilib.

Qeyd olunub ki, Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının bununla bağlı qəbul etdiyi Qərarda deyilir: “Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə “Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir”.

# YAP Mərkəzi Aparatında

## “Xalqın inamının və etibarının təcəssümü” adlı konfrans keçirilib

**Noyabrın 16-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında Veteranlar Şurasının təşkilatçılığı ilə partiyanın yaradılmasının 29-cu ildönümünə həsr olunmuş ”Xalqın inamının və etibarının təcəssümü” adlı konfrans keçirilib.**

Tədbirdə YAP Veteranlar Şurasının üzvləri, partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının, eləcə də Abşeron rayon və Sumqayıt şəhər təşkilatlarının fəalları iştirak ediblər.

Konfransda Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Konfransda çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, hazırda 760 min nəfərdən çox üzvü olan partiyamız ötən 29 ildə şərəfli yol keçib. Azərbaycan tarixində YAP qədər böyük, güclü partiya olmadığını deyən A.Rəhimzadənin sözlərinə görə, partiyamız Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır.

”Partiyamız öz gücünü Heydər Əliyev ideyalarından alır. Biz bu ideyalar ətrafında birləşərək mütəşəkkil siyasi qüvvəyə çevrilmişik. Hazırda Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası böyük nailiyyətlərə imza atır. Veteranlar Şurasının üzvləri olaraq biz partiyamızın yaranma tarixini, keçdiyi yolu gənc nəslə çatdırmalıyıq. Bu baxımdan, üzərimizə böyük vəzifələr düşür”, - deyə YAP Veteranlar Şurasının sədri vurğulayıb.










Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının üzvü Şəmsəddin Xanbabayev bildirib ki, müstəqilliyimizin ilk illərində YAP-ın yaranması tarixi zərurətə çevrilmişdi. Onun sözlərinə görə, Azərbaycanın parçalanması təhlükəsi xalqımızın ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı üçün çağırışlarını gücləndirirdi. Çünki bütün vətəndaşlar yalnız Heydər Əliyevi xilaskar kimi görürdü. 21 noyabr 1992-ci ildə yaranan partiya ulu öndər Heydər Əliyevə xalqın böyük inamı olduğu üçün qısa müddətdə təşkilatlandı və ölkəmizin ən nüfuzlu siyasi qüvvəsinə çevrildi. Ş.Xanbabyev həmçinin, bu il YAP-ın VII Qurultayında qəbul olunmuş qərarların və partiyada həyata keçirilən islahatların əhəmiyyətini vurğulayıb.








YAP Veteranlar Şurasının üzvü, professor Ədalət Fərəcov də çıxışında partiyanın yaranma tarixindən, keçdiyi inkişaf yolundan bəhs edib. O qeyd edib ki, 1990-cı illərdə mövcud olan xaos və anarxiya ölkəni məhv olmaq təhlükəsi ilə üzləşdirmişdi: ”Ona görə də, xalq öz nicatını böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Bir qrup ziyalı Ulu Öndərə müraciət edərək onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılmasını xahiş etdi. Beləliklə, 1992-ci ilin noyabr ayında partiya yarandı və qısa müddət ərzində hakimiyyətə gəldi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması ilə ölkəmiz böhrandan xilas olaraq inkişaf yoluna çıxdı”.








Partiyamızın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin güclü dövlətə çevrildiyini deyən Ə.Fərəcov cənab İlham Əliyevin Qarabağın işğaldan azad olunması ilə ata vəsiyyətini yerinə yetirdiyi vurğulayıb. Bu gün Qarabağın dirçəlişi yolunda görülən işlər hər bir vətəndaşda qürur hissi doğurur.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, professor Sudeyf İmamverdiyev qeyd edib ki, 29 il öncə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Vətənimizi üzləşdiyi təhlükələrdən xilas etmək amalı ilə yaradıldı. Onun fikrincə, partiyamızın yaradılması müstəqil Azərbaycan dövlətinin formalaşması prosesinə ciddi təsir göstərdi.

YAP Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərov da çıxışında Yeni Azərbaycan Partiyasının yaranma zərurətindən danışıb, 91 ziyalının ulu öndər Heydər Əliyevə müraciətinin əhəmiyyətindən bəhs edib. O, həmçinin Naxçıvanda partiyanın təsis konfransı ilə bağlı faktları diqqətə çatdırıb və qeyd edib ki, YAP öz tarixi missiyasını şərəflə həyata keçirib.

YAP Veteranlar Şurasının üzvü Xeyrəddin Qoca isə ümummilli liderimiz Heydər Əliyev haqqında xatirələrini bölüşüb, Ulu Öndərimizin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən bəhs edib:




”Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıtdı. Bu qayıdış müasir Azərbaycan tarixinin həlledici dönüş nöqtəsi idi”.



YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov da çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, dövlətimizin güclənməsi prosesindəki rolundan söhbət açıb.

Sonra tədbir diskussiya şəraitində davam edib, gənclərin sualları cavablandırılıb.

# Xalq qətiyyətlə Heydər Əliyevi Azərbaycanın Prezidenti görmək istəyirdi



**Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü, "91-lər"in üzvü, filologiya elmləri doktoru, professor Əjdər İsmayılovun yap.org.az-a müsahibəsi**

***- Əjdər müəllim, hər bir hadisənin baş verməsi üçün zərurət olmalıdır. Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, 29 illik tarixə malik Yeni Azərbaycan Partiyasının yaradılmasını zərurətə çevirən amillər hansılar idi? Müstəqilliyimizin ilk illərində Azərbaycanın yaşadığı çətinliklər, faciələr, xalqın sabaha itən ümidləri nəyə çağırış edirdi?***

- Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.

Dağlıq Qarabağla başlayan müsibətlərimiz Azərbaycan coğrafiyasını yanar odlu çənbərə saldı. Belə bir ağır gündə Vətəndə vətənsiz olan bəzi yüksək vəzifəli ünsürlər və onların tərəfdarları azadlıq uğrunda ayağa qalxmış xalqa sahib çıxmadılar. Əksinə ictimai-siyası həyatda təxribatlar törətdilər, ölkədə xaos yaratdılar, xüsusən Sovet ordusu sıralarında sayılan-seçilən vətənpərvər generalları ordu komandanlığından uzaqlaşdırdılar, Vətənin müdafiəsini özlərini guya xalqın səlahiyyətli "vəkilləri" kimi göstərən bir dəstə başıpozuq silahlı güruhun əli ilə heç bir hərbi təcrübələri olmayan, xalqın tanımadığı mənsəbpərəst təsadüfi adamlara tapşırdılar. Bununla da Vətənində bu vətənsizlər, bu satqınlar qanlı cəbhədə ayrı-ayrı dəstələrdən ibarət olan qeyri- mütəşəkkil ordunun arasında çaxnaşma saldılar və təkəbbürlülük, mənəm-mənəmlik hissi ilə yaşayan bəzi dəstə başçıları arasında düşmənçilik toxumu səpməyə nail oldular. Vətənin xilası naminə düşmənə tərəf çevrilməli olan hərbi texnikanı ələ keçirmiş məlum satqın dəstə başçıları ölkəmizi parçalayıb, düşməni yaddan çıxartdılar, bir-birinin qəniminə çevrildilər, ayrı-ayrı dərəbəy hakimiyyətləri yaratmaq iddiasına düşdülər. Tarixin lənətlədiyi ünsürlər və onların tərəfdarları Vətəni çox ciddi şəkildə parçalanmaq təhlükəsi qarşısında qoydular. Bununla da Moskvanın göstərişlərini yerinə yetirən görünməz əllər dinc əhalini qanına qəltan edən rus-erməni bandasının Qarabağda tarixdə görünməyən müdhiş vəhşiliklər törətməsinə şərait yaratmış oldular.

Azərbaycanın qarşısında dayanan belə bir "Olum, ya ölüm" günlərində M.Qorbaçovun ölüm hədələrindən qorxmayan, tarix qarşısında "Həyatımı xalqıma qurban verməyə hazıram" deyə, başsız, havadarsız qalmış candan əziz tutduğu xalqını birliyə, mübarizəyə səsləyən Heydər Əliyev xəstəliyinə baxmayaraq, Vətəni düşmənlərin qanlı caynağından xilas etmək üçün Moskvadan doğulduğu Naxçıvana pənah gətirdi. Mərkəzdən ayrı düşmüş Naxçıvanın vəziyyəti həmin günlərdə daha təhlükəli idi. Çünkü müstəqillik və azadlıq eşqi ilə mübarizəyə qalxmış əhali tərəfindən Araz boyu tikanlı sərhəddin bir neçə gün ərzində darmadağın edilməsinə şərait yaradan Moskvanın hiyləgər, məkrli siyasəti məlum idi. Belə ki, hərb-müharibə görməyən dinc əhaliyə qəfildən 1918-1920-ci illərdə basqın edib, Arazın o sahilinə qaçmağa, atababa yurdunu boşaltmağa məcbur edən ermənilər arxada ingilis işğalçıları və əldə onların silahı ilə vilayətdə qanlı tarix yazdıqları kimi, 1990-cı illərədək qurd səbri ilə fürsət gözləyən daşnaqlar yaranmış yeni siyasi şəraitdə arxada ehtiyatda dayanmış rus imperiya ordusuna söykənərək, əhalini çayın o biri tərəfinə qovmağa, qanlı tarixi təzələməyə çalışırdılar. Buna baxmayaraq, erməni silahlı bandası tərəfindən əhatə olunduğu dağ silsiləsi boyu gecə-gündüz atəş altında saxlanan Naxçıvan əhalisi bir qarış torpaq verməmək üçün düşmənlə mərdliklə döyüşürdü.

Belə bir ağır şəraitdə Heydər Əliyevin Naxçıvana gəlişi Moskvanı və Azərbaycan rəhbərliyini, onun ətrafında "birləşmiş" respublikanın mənsəb və sərvət hərislərini bərk təşvişə salmışdı.

Dağ silsiləsi boyu ermənilərin Naxçıvana od yağdırdığı günlərdə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetində müəllim işləyirdim. Xalqımın fəryadına bir Vətən oğlu kimi biganə qala bilməzdim. Xalqımın xilası naminə həyatından keçən əsgər inamı ilə tarixi borcumu yerinə yetirirdim. M.Qorbaçovun atalıq himayəsində olan altmış minlik erməni-daşnaq bandasının qabağını Naxçıvanın qapısı olan Sədərəkdə saxlayıb, ellikcə vuruşurduq.

***- 1992-ci ilin oktyabrın 16-da xalqın böyük əksəriyyətinin istəyini özündə ifadə edən 91 nəfər görkəmli elm, mədəniyyət, incəsənət xadiminin və siyasi fəalların partiyanın yaradılması ilə bağlı ulu öndər Heydər Əliyevə ünvanladığı "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətini imzalayanlardan biri də sizsiniz. O dövrlə bağlı hansı məqamları xüsusi qeyd etmək istərdiniz?***

- Müstəqil Azərbaycan uğrunda mübarizəmizin ölümlü və fəlakətli günlərində müdriklər müdriki, müstəsna dövlət adamı olan Heydər Əliyevin ən yaxın silahdaşı və siyasi sirdaşı olduğum hadisələrin bir neçə məqamını xatırlatmaq istərdim. 1992-ci ilin 22 aprel tarixində Naxçıvan televiziyasının lentə aldığı Şərur rayonunun mədəniyyət sarayında təşkil etdiyim rayon əhalisinin geniş toplantısında Heydər Əliyevin qarşıdan gələn prezident seçkilərində namizədliyini irəli sürdük. Bu, Heydər Əliyevi hakimiyyətə gətirən xalqın ilk tarixi addımı idi.

Mən toplantının çıxardığı qərarı 23 aprel tarixində Bakıda naxçıvanlıları birləşdirən "Əlincə" cəmiyyətinə çatdırdım. Bir neçə ziyalının təşkilatçılığı ilə keçmiş Ali Sovetin qarşısında Heydər Əliyevin hakimiyyətə gəlməsinin qarşısını alan maneəni - "yaş senzi"ni aradan qaldırmaq üçün sessiyanın çağrılmasını tələb edən 24 aprel tarixindən mitinqlərə başladıq. Mitinqlərdən sonra Naxçıvana qayıtdım, Heydər Əliyevin dəvəti ilə onun yanında oldum. Müdrik bir siyasət adamı ilə üz-üzə oturub, onun xalqın düşdüyü bəladan xilası ətrafında verdiyi suallara cavab verməkcəsarət və məsuliyyət tələb edirdi. Hiss edirdim ki, Ulu Öndərin özü mənə sərbəstlik verirdi. Aramızda ətraflı, səmimi söhbət xeyli çəkdi. Sonda dedim: Heydər bəy, biz hər gün təşkil etdiyimiz toplantılarda "Heydər bəy siyasətə qayıdır" desək də bu çağırış toplantıdan o tərəfə çıxmayacaq. Heydər Əliyev "Fikrin nədi?" deyə, maraqla soruşdu. Mən dedim ki, xalqı Sizin ətrafınızda birləşdirmək üçün partya yaratmaq günün zərurətidir. Heydər Əliyev mahir siyasət adamı kimi söhbətin istiqamətini dəyişərək, nə hə dedi, nə yox. El atasından qəti cavab ala bilmədim. Buna baxmayaraq, yaşadığım Şərur rayonunda tanınmış ziyalılardan ibarət "Heydər Əliyevin tərəfdarları" adında təşəbbüs qrupu təşkil etdim. Bundan sonra tərəfdarları siyahıya almaq üçün rayon qəzetinin mətbəəsində partiyanın yaradılmasında tələb olunan kriteriyaları əhatə edən kifayət sayda blank hazırladıq. Qısa müddətdə otuz iki mindən artıq tərəfdarı siyahıya aldıq.

Yeni Azərbaycan Partiyasını yaratmaq təşəbbüsü sonra bütün Azərbaycana yayıldı. Bakıdan vətənsevən ziyalılar dəstə-dəstə Naxçıvana gəlirdilər. Beləliklə, məşhur "91-lər" hərəkatı yarandı. Və biz Yeni Azərbaycan Partiyasının təməlini qoyduq.

1992- ci ilin 21 noyabrında Naxçıvanda Cəlil Məmmədquluzadə adına Dövlət Teatrının binasında YAP-ın təsis konfransı keçirildi. Mənim yazdığım "Partiyamızın lideri xalqdır" Bəyanatı 9 dekabr 1992-ci ildə "Səs" qəzetində çap edildi. Bu bəyanat YAP-ın Heydər Əliyevin ətrafında birləşən naxçıvanlıların timsalında müstəqillik uğrunda 70 illik rus imperiyasından xilas olmaq üçün ölüm-dirim mübarizəsinə qalxmış bütün Azərbaycan xalqının bəyanatı idi.

***- Əjdər müəllim, "91-lər" hərəkatının fəal iştirakçısı kimi sonrakı prosesləri necə şərh edərdiniz?***

- 1992-ci ilin dekabrında YAP-ın Naxçıvan şəhər özəyini yaratmaq üçün bütün idarə və təşkilatlarda ziyalılardan ibarət imza toplayan "Heydər Əliyev tərəfdarları" təşəbbüs qrupunu təşkil etdim. İş aparmaq üçün şəhər təşəbbüs qrupunda birləşən heydərsevərlər arasında bölündü.

Mən Heydər Əliyevi hakimiyyətdən salmağa çalışan Naxçıvan şəhər Xalq Cəbhəsi üzvünün böyük bir qismini təşkil edən həkim və tibb bacısının işlədiyi Şəhər Mərkəzi Xəstəxanasında və Respublika Doğum Evində siyahıya almağı öz üzərimə götürdüm. Biz bilirdik ki, bu yerlərdə imza toplamaq heç də asan olmayacaqdı. Özünü itirmiş bəzi həkimlərin ciddi kobud hərəkətləri ilə üz-üzə gəldim. Ancaq Heydər Əliyev tərəfdarları yoldaşlarının başqılarına baxmayaraq, imza atmaqda çox fəal iştirak etdilər.

Sonralar Naxçıvanda Ulu Öndərin həyata keçirdiyi cahanşümul işlər başladı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları bərpa edildi. 1918-ci ildə yaranmış dövlət himni əbədi ömrünə qoşuldu. Səkkizguşəli ulduzumuz ilk dəfə Naxçıvanda bərq vurmağa başladı. "Sovet, sosialisti" sözləri Muxtar Respublikanın adından çıxarıldı. Qanlı 20 Yanvar hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymət verildi. Artıq Naxçıvana gəlib-gedən Azərbaycan ziyalılarının ardı-arası kəsilmirdi. Xalq qətiyyətlə Ümummilli Liderini Azərbaycanın Prezidenti görmək istəyirdi. O illəri bu gün bax beləcə qürur hissləri ilə xatırlayırıq.

***- Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın xilası oldu...***

- Xalqımın, Vətənimin fəlakətli günlərində daşnakların "Böyük Ermənistan" yaratmaq istəyinin, düşmənlərimizin Azərbaycanı parçalamaq və Qafqazın siyasi xəritəsindən silmək planlarının reallaşmasının qarşısını ala biləcək yeganə şəxsiyyət Heydər Əliyev idi. Azərbaycanı məhz Heydər Əliyev xilas edə bilərdi və etdi.

Azərbaycanda siyasi proseslər sürətlə inkişaf etdi. Heydər Əliyev 1993-cü ilin iyunun 9-da Naxçıvandan Bakıya gələrək əvvəlcə Azərbaycan Respublikası Ali Sovetinin sədri, 1993-cü ilin oktyabrında isə Azərbaycan Respublikasının Prezidenti seçildi. YAP iqtidar partiyasına çevrildi. Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bugünkü möhtəşəm, qalib Azərbaycan nəinki olmazdı, ümumiyyətlə, onun mövcudluğu şübhə altında olardı. Bütün həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünən Ümummilli Lider düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir. Bugünkü Azərbaycanı 29 il bundan öncəki Azərbaycanla müqayisə etmək kifayətdir.

***- Əjdər müəllim, ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycanın 2003-cü ildən sonrakı dövrünü necə xarakterizə edərdiniz? Azərbaycanın tarixi Zəfəri sizdə hansı hissləri yaratdı?***

- Heydər Əliyev yolunun layiqli davamçısı cənab İlham Əliyev Azərbaycana uğurla rəhbərlik edir. Bütün dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir və Dünya azərbaycanlılarının Lideridir. İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünyada uğur qazanmasında, bir çox layihələrin gerçəkləşməsində, çətin diplomatik görüşlərdə fəal iştirak edərək Azərbaycanın dünyaya inteqrasiyasında mühüm xidmətlər göstərib. Bir sözlə, bu gün xalqımızın bütün təbəqələrinin hörmətini qazanmış, hər an onların yanında olan, bütün sahələrə diqqət ayıran, Yeni Azərbaycan Partiyasının layiqli Lideri, bütün Dünya azərbaycanlılarının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri həyata keçirir.

Möhtərəm İlham Əliyev ilk Prezident seçiləndə geniş məzmunda teleqram vuraraq onu təbrik etdim və Heydər Əliyevin siyasətini davam etdirməkdə "köhnə qvardiya"nın həmişə onunla olduğunu dedim. Bu gün də biz möhtərəm Prezidentimizin yanındayıq.

Əbədiyaşar Heydər Əliyevin qurub-yaratdığı müasir müstəqil Azərbaycan dövlətinin bu gün müzəffər, yenilməz, Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında qazandığı bütün qələbələr, 44 günlük tarixi hərbi uğurlarımız artıq dünya şöhrəti qazanmışdır. İqtisadi, sosial sahələrdə cənab İlham Əliyevin həyata keçirdiyi bütün işlər və beynəlxalq arenada əldə etdiyi siyasi uğurlar bu gün bizə əsas verir deyək ki, Ulu Öndərimizin ruhu şaddır və dövlət sükanı ehtibarlı əllərdədir. Onun davamçısı, xalqımızın sevimlisi, Ali Baş Komandan İlham Əliyev bütün ümidləri doğruldaraq xalqımıza şərəf yaşadaraq torpaqlarımızı öz taktiki gedişi ilə işğaldan azad etdi. Bu, Ali Baş Komandanımız İlham Heydər oğlunun Ona atasından miras qalmış səbr, təmkin və zamanı qabaqlayacaq böyük müdrikliklə tarixən yaridilənçi olmuş köçkün ermənilərə deyil, onların simasında 1990-cı illərdə "Qanlı Qarabağ tarixi"ni yazan, ermənilərə güclü hərbi texnika ilə yardım göstərən, torpaqlarımızı 30 il işğal altında saxlayan rus imperiyasına, saman altından su yeridən bəzi "dost və qardaş" dövlətlərə vurulan zərbədir. Zəngəzur dəhlizi bizi böyük Turan ellərinə aparacaq, "Naxçıvan -Türk İpək Yolu" bu gün reallaşmaqdadır. Vətən savaşımızda şəhid olan övladlarımızın ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirəm.

# 17 Noyabr - Azərbaycanda Milli Dirçəliş Günüdür




**Azərbaycan xalqının mənafelərini qorumayan, ermənilərin ölkəmizə qarşı olan torpaq iddialarını, erməni separatizmini və terrorunu dəstəkləyən bir rejimə qarşı kütləvi xalq hərəkatı 1988-ci il noyabrın 17-də başlandı.**

Azərbaycan xalqı bir yumruq olaraq birləşib, öz haqq səsini ucaltdı. Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 70 il Azərbaycanı müstəmləkə əsarətində saxlayan sovet imperiyasına qarşı xalq ilk kütləvi etiraz səsini qaldırdı. Həmin gün paytaxtımızdakı Azadlıq meydanına axışan insanların sayı-hesabı yox idi. Bu gün xalqın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri olan 17 Noyabr Milli Dirçəliş Günüdür. Azərbaycan xalqı bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, azad olmağa layiq xalqdır. Qüdrətli xalq hərəkatının əzəməti respublikamızın bütün şəhər və rayonlarını bürüdü. Xalqımız imperiya buxovlarından və əsarət zəncirindən azad olmaq istəyirdi. Azərbaycanda meydan hərəkatı geniş vüsət aldı. Bu milli hərəkat xalqın dirçəlişi idi. Respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli xalq hərəkatı kommunist rejiminə qarşı yönəlmişdir. Sovet rejimindən erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış "meydan hərəkatı" tezliklə Azərbaycanı müstəqilliyə çağıran şüarlara keçdi. Azərbaycanda bu hadisələr milli-azadlıq hərəkatı kimi qiymətləndirilir. Dekabrın 4-dək 18 gün aramsız davam edən aksiyalara 1 milyonadək insan toplaşmışdı. Bu, keçmiş Sovet İttifaqında ən genişmiqyaslı kütləvi çıxışlar idi. 1988-ci ilin 17 noyabrında başlanan kütləvi çıxışlar Azərbaycanın tarixinə milli dirçəliş aksiyaları kimi düşdü. Öz haqqı, azadlığı və torpaqlarına sahib çıxmaq istəyən xalqımız bu müqəddəs ideallar naminə birlik və bərabərliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi.1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Ümummilli Lider Heydər Əliyevin Sədrliyi ilə keçirilən həmin sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında tarixi qərar qəbul olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı.

17 noyabr xalqın mübarizə əzmini göstərdi. Zəngin tarixə malik xalqımız artıq neçə ildir ki, Milli Dirçəliş Gününü bayram kimi qeyd edir və bu gün müstəqilliyimizin siyasi və iqtisadi sütunları daha da möhkəmlənib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub-saxlanmasına xüsusi diqqət yetirir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin xilas edib inkişaf yoluna çıxardığı dövləti daha da möhkəmləndirib. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil, dünyəvi və inkişaf edən bir ölkədir. Bu gün işğal altında olan şəhər, kənd və qəsəbələrimiz Azərbaycan ordusu tərəfindən azad olundu. Sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi qələbəmizlə sona çatdı. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan məğlub edildi.

Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. İşğaldan azad olan torpaqlarımızda yeni bir həyat başlayıb. Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad edib və viran qoyulan ərazilərimizdə abadlıq-quruculuq işləri aparılır. Bu gün xalqımız 17 Noyabr Milli Dirçəliş Gününü qələbə əzmi ilə qeyd edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Bölgədə yaşanan gərginlik Ermənistanın növbəti hərbi-siyasi təxribatıdır"



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi son günlər Ermənistanın sərhəddə törətdiyi təxribatlar barədə məlumat yayıb. AZƏRTAC məlumatı təqdim edir: "Son günlərdə Ermənistan tərəfindən məqsədyönlü təxribatların törədildiyi müşahidə edilir. Bu, Ermənistan rəhbərliyinin növbəti hərbi avantürasıdır.

Belə ki, Ermənistanın keçmiş müdafiə nazirinin Azərbaycanın müvəqqəti Rusiya sülhməramlılarının nəzarətində olan ərazisinə qanunsuz səfəri və burada hərbi təyinatlı müşavirələr keçirməsi, Ermənistan silahlı qüvvələrinin 60-a yaxın şəxsi heyətinin Laçın rayonunda Azərbaycan Ordusunun mövqelərinə aparan yol üzərində cəmləşməsi, habelə Ermənistan silahlı qüvvələrinin Silahlı Qüvvələrimizin Kəlbəcər və Laçın rayonundakı mövqelərini intensiv atəşə tutması onu göstərir ki, Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirir.

Bütün bunlar onu göstərir ki, Ermənistan regionda sülh və təhlükəsizliyin təmin olunmasında, eləcə də Azərbaycan ilə sərhədlərin delimitasiyasında maraqlı deyil. Vurğulayırıq ki, bölgədə yaşanan gərginlik Ermənistanın növbəti hərbi-siyasi təxribatıdır. Mövcud gərginliyə görə başlıca məsuliyyət bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".



## "Ermənistana məxsus xeyli sayda sursat ələ keçirilib"

Ermənistana məxsus xeyli sayda sursat, hərbi qənimət ələ keçirilib. SİA xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov Ermənistan silahlı qüvvələrinin dövlət sərhəddində Azərbaycana qarşı törətdikləri genişmiqyaslı təxribatlarla bağlı keçirilən brifinqdə deyib. Nazirlik rəsmisi bildirib ki, son dövrdə baş verən erməni təxribatları bu gün daha da intensivləşib, qəfil hərbi əməliyyatlara başlanılıb: "Döyüş postlarımıza hücum olunub, iki hərbi qulluqçumuz yaralanıb, həyatlarına ciddi təhlükə yoxdur". O qeyd edib ki, Ermənistana məxsus xeyli sayda sursat, hərbi qənimət ələ keçirilib: "Adekvat tədbirlər görülüb. Hücum tam iflasa uğrayıb. Hazırda sərhəddə vəziyyət gərgin olaraq qalır, vəziyyət nəzarət altındadır".

## Milli Məclis gələn ilin büdcəsini birinci oxunuşda qəbul edib

Milli Məclisin payız sessiyasının dünən keçirilən plenar iclasında "2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. SİA-nın xəbərinə görə, müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Xatırladaq ki, gələn il Azərbaycanın dövlət büdcəsinin gəlirlərinin 26 816 milyon manat, xərclərinin isə 29 879 milyon manat olacağı gözlənilir. Bunlar 2021-ci ilin təsdiq edilmiş proqnozları ilə müqayisədə müvafiq olaraq 5,4% və 4,7% çoxdur. Son nəticədə büdcədə 3 063 milyon manat kəsir yaranacaq ki, bu da illik müqayisədə 1,7% azalma deməkdir. Büdcə gəlirlərinin 25 874,5 milyon manatı mərkəzləşdirilmiş, 941,5 milyon manatı isə yerli gəlirləri, büdcə xərclərinin isə 28 900 milyon manatı mərkəzləşdirilmiş, 979 milyon manatı isə yerli xərclərdir.

## "YAP Ümummilli Liderin şah əsərlərindən biridir"

"Yeni Azərbaycan Partiyası şanlı inkişaf yolu keçmiş, xalqımıza və dövlətimizə böyük xidmətlər göstərmiş bundan sonra da uzun illər Azərbaycan xalqının rifahı naminə, dövlətimizin qüdrətlənməsi naminə işlər görmək iqtidarında, gücündə olan möhtəşəm ictimai-siyasi bir partiyadır. Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır". Bunu SİA-ya açıqlamasında millət vəkili Musa Quliyev deyib.

Onun sözlərinə görə, YAP Ümummilli Liderin şah əsərlərindən biridir: "Onun duasında, işığında, Azərbaycan ziyalılarının təklifi ilə 1992-ci ilin noyabr ayının 21-də çox çətin bir şəraitdə Naxçıvan MR-da öz təsis konfransını keçirərək YAP yarandı. Beləliklə də, o, Azərbaycan ictimai-siyasi həyatına atıldı. Həmin illərdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyü partiyamızın yaranmasına, inkişafına hər cür maneələr törədirdilər, zorakılığa əl atırdılar. Qeyri-qanuni hərəkətləri ilə xalqımızı qorxudaraq partiya sıralarına gəlməyə çəkindirirdilər. Buna baxmayaraq, Ümummilli Lideri ürəkdən sevən, ona inanan Azərbaycan xalqı onun sədrliyi ilə yaradılan partiyada öz ümidini gördü. Xalqımız düşdüyü ağır vəziyyətdən çıxış yolunu,



Azərbaycanın gələcək işıqlı yolunu bu partiyada gördü. Buna görə də, partiyamız tez bir zamanda təşkilatlandı. Yaranandan 8 ay sonra partiyanın sədri Ümummilli Lider Heydər Əliyev dövlət rəhbərliyinə gəldi. Daha sonra partiyamız 1995-ci ildə keçirilən seçkilərdə qalib gələrək böyük deputat çoxluğu ilə parlamentdə təmsil olundu. Yarandığı gündən həmişə birləşdirici, xalqın, dövlətin mənafeyinə xidmət edən və öz nizamnamə və proqramlarında dünyanın qabaqcıl təcrübəsini tətbiq edən Azərbaycan dövlətçiliyini, ərazi bütövlüyünü, vətəndaş həmrəylini əsas götürən bir ideoloji xətti daşıyan partiyamız bu gün dünyanın ən tanınmış, ən nüfuzlu və nəhəng partiyaları ilə sıx əməkdaşlıq edir".

Musa Quliyev bu haqda fikirlərini belə izah edib: "Partiyamızın sədri və cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın 21-ci əsrdə əldə etdiyi bütün nailiyyətlərində hər bir ləyaqətli YAP üzvünün öz töhfəsi var. Dövlətimizin qüdrətlənməsində, beynəlxalq nüfuzunun artmasında xalqımızın həyatının yaxşılaşmasında, xoşbəxtlik tapmasında, tərəqqisində YAP öz tarixi məsuliyyətini başa düşərək öz tarixi missiyasını ləyaqətlə yerinə yetirir. Yarandığı gündən bu yana istər bələdiyyə seçkilərində, istər parlament seçkilərində, istərsə də prezident seçkilərində YAP iştirak etmiş və bu seçkilərin hamısından qalib ayrılmışdır. Bu da onu göstərir ki, Azərbaycn xalqı YAP-a inanır, güvənir öz səslərini ona verməklə başqa alternativ görmədiklərini bəyan edirlər. Partiyamızın sədri İlham Əliyevin və partiya sədrinin birinci müavini Mehriban Əliyevanın partiyamızın sıralarını daha da artırmaq, gəncləşdirmək, eyni zamanda qadınların sayını artırmaq baxımdan rolu böyükdür. Eyni zamanda partiyamız digər vətənə xəyanət yolu tutmayan partiyalarla dövlətimizin birliyi üçün birgə fəaliyyət göstərir.

44 günlük müharibə vaxtında döyüşən və döyüşənlərə yardım edən vətəndaşların əksəriyyəti YAP-ın üzvləri idi. Bundan da biz bir partiya olaraq qürur duyuruq. Partiyamız ölkəmizin beynəlxalq əhəmiyyətli hümanitar, mədəni, iqtisadi, sosial tədbirlərin həyata keçirilməsində fəal iştirak edir. Artıq iki ildir ki, bütün dünyanı ağuşuna almış koronavirus pandemiyası zamanında da partiyamızın nümayəndələri, gənclər əsl vətəndaşlığı nümunəsi göstərərək humanitar tədbirlər həyata keçirdilər. Bu da digər QHT və partiyalara nümunə oldu. Əlbəttə, cənab Prezidentin rəhbərliyi altında bizim görəcəyimiz işlər çoxdur. İşğaldan azad olunmuş ərazilərdə, Qarabağ və Şərqi Zəngəzurun abadlaşdırılmasında, bizim keçmiş məcburi köçkünlərimizin öz yurd-yuvalarına geri dönməsi üçün şəraitin yaradılmasında YAP öz avanqard sözünü deyəcək, öz avanqard fəaliyyətini həyata keçirəcək. YAP uzun illər iqtidarda olacaq və xalqımız, dövlətimiz naminə ləyaqətli xidmətini davam etdirəcək".

***Turqay Musayev***

# Dirçəlişə aparan yol

**Müstəqil dövlətə sahib olmaq naminə əzmkarlıqla mübarizə aparan və azadlıq uğrunda mücadilə edən Azərbaycan, tarix boyu keşməkeşli yol keçib, sınaqlardan üzü ağ çıxıb və məhz bu səbəbdən də dirçəliş yoluna qovuşub. Ötən əsrin sonlarında, daha dəqiq desək, 1988-ci il 17 noyabr tarixində xalqımız anti-Azərbaycan siyasəti yürüdən Sovet imperiyasına qarşı uzunmüddətli mitinqlərə başlayıb və birlik nümayiş etdirib, yüz minlərlə azərbaycanlı Bakının əsas meydanı sayılan "Azadlıq" meydanına toplaşaraq Azərbaycan xalqının iradəsini bəyan edib. Məhz 17 noyabr tarixi xalqımızın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri, Milli Dirçəliş Günü olaraq qeyd edilir və hər il qürur hissi ilə qeyd etdiyimiz bu gün, Azərbaycan xalqının istəklərindən, dirçəliş məqsədlərindən qaynaqlanan Milli Dirçəliş Günü tariximizə qızıl hərflərlə yazılıb.**

Azadlıq meydanına 1988-ci il noyabrın 17-dən başlayaraq toplaşan insanlar rəsmi Moskvanın Azərbaycana yönəlik ikili standartlara söykənən siyasətinə etiraz edib və ən yeni tariximizdə "Meydan hərəkatı" adlanan prosesin əsas qoyulub, hansıki, milyonlarla insanın qatıldığı bu aksiyalar həm də keçmiş SSRİ-də ən irimiqyaslı etiraz aksiyası olub. Təsadüfi deyil ki, SSRİ-nin süqutu prosesini araşdıran yerli və xarici tədqiqatçıların böyük əksəriyyəti bu prosesdə Azərbaycanda başlayan "Meydan hərəkatı"nın mühüm rol oynadığını xüsusi olaraq vurğulayırlar. Doğrudur, bir neçə gün sonra, dekabrın 4-dən 5-nə keçən gecə həmin o ümumxalq mitinqi sovet qoşunları tərəfindən dağıdılsa da, bu, milli azadlıq hərəkatının qarşısını ala bilməyib və 17 gün davam edən "Meydan hərəkatı" Azərbaycanın müstəqilliyinin bərpasında mühüm mərhələ kimi tarixə həkk olunub.





17 noyabr 1988-ci il tarixi və bu gün başlayan "Meydan hərəkatı" milli-azadlıq hərəkatının başlanğıcı idi. Sovet İttifaqı rəhbərliyinin ermənilərin Dağlıq Qarabağa iddiasına loyal münasibəti və qərəzli mövqeyi, Azərbaycan xalqını ayağa qaldırmışdı. Azərbaycana qarşı Sovet imperiyasının ikili yanaşması, ədalətsiz mövqeyi göz önündə idi və xalqımız bunun qəbuledilməz olduğunu, məhz həmin o mitinqlər zamanı ifadə edirdi. Bu baxımdan da milyonlarla insanın Azadlıq meydanına axışması, öz hüquqların, müstəqillik istəklərini bəyan etməsi ən yeni tarixin təməlini qoydu.

Mitinqin hətta ilk günlərindən belə hiss olunurdu ki, SSRİ-nin heç bir yerində rast gəlinməyən mübarizə ruhu Azərbaycanda var və bu, xalq hərəkatı, milli azadlıq hərəkatı idi ki, yaddaşlardan silinən deyil. Doğrudur, bütün bunların fərqində olan, hadisələri müşahidə edən rəsmi Moskva İttifaq dönəmində Azərbaycanda ilk dəfə fövqəladə vəziyyət elan etsə də, SSRİ-nin müxtəlif ərazilərində dislokasiya edilmiş daxili qoşun qüvvələrini Bakıya gətirilərək meydanda yerləşdirsə də, dekabrın ilk ongünlüyündə mitinq iştirakçıları oradan zorla çıxarılsa da, onların bir qismi həbs edilsə də, milli ruhu, xalqın dirçəliş, müstəqillik əzmini qıra bilmədilər. Bəli, bu xalqın əzmini qıra bilmədilər və məhz bu proseslərin məntiqi nəticəsi olaraq xalq öz arzusuna çatdı və bu baxımdan cəsarətlə deyə bilərik ki, 1988-ci il noyabrın 17-dən başlayan meydan hərəkatı ilə azad Azərbaycanın təməli qoyuldu. Bu hadisələrin milli azadlıq hərəkatı kimi qiymətləndirilməsi də əbəs yerə deyil, çünki, ölkəmizin istiqlaliyyət qazanmasında əsas, vacib hesab edilir və bu tarix, 17 noyabr tarixi 1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur.

Nəzərə çatdırmaq yerinə düşərdi ki, həmin dövrün dünyaca məşhur, nüfuzlu nəşrləri məhz həmin o "Meydan hərəkatı" barədə yazır, bu hərəkatı, xalqımızın milli ruhunu, azadlıq, müstəqillik, dirçəliş mücadiləsini yüksək qiymətləndirirdi. Təsadüfi deyildi ki, "Newsweek" jurnalı 1988-ci ildən Azərbaycanı bürümüş anti-sovet xalq hərəkatına işarə vuraraq qeyr-rəsmi şəkildə xalqımızı "İlin Xalqı" elan edirdi. Yəni, bu onu göstərirdi ki, Azərbaycan xalqının milli ruhda olması, öz hüquq və azadlıqlarını, müstəqilliyini, suverenliyini tələb etməsi və bunun uğrunda mücadilə aparması bütün dünyada nəinki izlənilirdi, hətta yüksək qiymətləndirilirdi də. Təbii ki, bu mücadilənin məntiqi nəticəsi göz önündədir və məhz bu səbəbdən də həmin günlər unudulan, yaddan çıxan deyil.

Xatırladığımız kimi, Ümummilli Lider Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin iclasında gələcək mübarizə və inkişaf yolunu müdrikliklə bəyan etmişdi. Ulu Öndər, Azərbaycan xalqının birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalı, Azərbaycan Respublikasının iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalı olduğunu hələ o zaman qeyd edirdi. Bunun ardınca biz şahidi olduq ki, Ümummilli Lider Heydər Əliyev həttа bütün ömrü boyu bu müqəddəs amala sadiq qaldı və öz xalqının, vətəninin istiqlalı uğrunda fədakarlıqla mübarizə apararaq buna nail oldu.



Ulu Öndərin hakimiyyəti dövründə respublikamız ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqi istiqamətində misilsiz nailiyyətlər qazana bildi və Azərbaycana, öz xalqına bağlı olan dahi şəxsiyyət Heydər Əliyevin bir müdrik siyasi xadim və dövlət xadimi kimi uzun illər boyu Azərbaycan xalqına yol göstərəcək, fayda verəcək qiymətli irs miras qoydu. Məhz xalqın tələbi ilə bu dahi şəxsiyyətin yenidən hakimiyyətə qayıdışından sonra ölkədə əmin-amanlıq yarandı, Azərbaycan davamlı inkişaf yoluna qədəm qoydu, xalq hərəkatının başlanğıcı olan 17 noyabr hadisələri həm də 1991-ci ilin 18 oktyabr, Azərbaycan müstəqilliyinə təkan verdi. Ümummilli Lider Heydər Əliyevin özü qədər inandığı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın gündən-günə qüdrətləndiyi, gücləndiyi və dünya miqyasında nüfuzunu daha da yüksəltdiyi günün reallığıdır.




Təbii ki, ölkəmizə qarşı 30 ilə yaxın müddət ərzində işğalçılıq siyasəti yürüdənlərin torpaqlarımızdan qovulması, torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpa edilməsi də öz növbəsində müstəqilliyimizin, suverenliyimizin sütunlarının möhkəm olmasını təsdiq edir. Təsdiq edir ki, Azərbaycan güclü bir dövlət, müstəqil, suveren dövlətdir və bu müstəqilliyin, suverenliyin təməli məhz dirçəliş günü qoyulub. Ermənistanın təxribatlarına, yeni torpaqlarımızı işğal etmək cəhdlərinə cavab olaraq başladılan və 44 gün davam edən Vətən müharibəsi, bu müharibədə ən tez zamanda əldə edilən qələbəmiz müstəqilliyimizin sağlam dayaqlar üzərində olduğunun göstəricisidir. Həm də onun göstəricisidir ki, bu müstəqilliyimizin təməli dirçəliş günü məhz xalqın birliyi ilə çox möhkəm qoyulub, hansı ki, biz bu birliyin, həmrəyliyin təntənəsinin, zəfərinin 44 günlük vətən müharibəsində, düşmən üzərində əldə etdiyimiz qələbələrdə əyani şahidi olduq.

Azərbaycan xalqını müstəmləkə boyunduruğu altında saxlamağın mümkünsüz olduğunu 17 noyabr hadsələri əyani şəkildə təsdiq etdi. Məhz bu hünün, bu tarixin yaddaşlarda yaşamasının, tariximizə qızıl hərflərlə yazılmasının, hər il qeyd olunmasının fəlsəfəsi də bundan ibarətdir. Bütün dünya fərqindədir ki, Azərbaycan xalqı müstəqilliyini öz mücadiləsi ilə, öz mübarizəsi sayəsində əldə edən bir xalqdır.

Bu xalqın müstəqilliyinin əlindən alınmasının, suverenliyinin təhdid altında qoyulmasının mümkünsüzlüyünə şübhə edən yoxdur və 17 noyabr həm də bu inamın, bu etibarın təntənəsi, ildönümüdür. Artıq xalqımız hər il Milli Dirçəliş Gününü bayram kimi qeyd edir və göründüyü kimi, bu günün qeyd olunması bütün Azərbaycan xalqının mənəvi haqqıdır.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, zəfərlərə imza atan Azərbaycan Prezidenti cənab İlham Əliyevin dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub-saxlanmasına, təhlükəsizliyin qorunub saxlanılmasına, sülhün, əmin-amanlığın təmin olunmasına xüsusi diqqət yetirdiyi günün reallığıdır. Bu da səbəbsiz deyil və məhz bunun məntiqi nəticəsi olaraq Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Özü də dövlətimiz, məhz Ali Baş Komandanın qətiyyəti, iradəsi, liderlik keyfiyyətləri, ordumuzun rəşadəti və əsası məhz dirçəliş tarixinə təsadüf edən xalqımızın birliyi sayəsində qazanılan qələbə ilə artıq dünyanın qalib dövlətlərindən biri kimi dünyada tanınır və bu ölkənin gücünə, qüdrətinə şübhə edən yoxdur. Müasir dünyamızda inkişaf etmiş çox güclü dövlətlər Azərbaycanın mövqeyi ilə hesablaşırlar. Elə bu səbəbdən də bu gün Azərbaycan gələcəyə ümidlə, inamla baxır və Azərbaycan, sözün əsl mənasında, müstəqil, dünyəvi və inkişaf edən bir ölkədir.

***İnam Hacıyev***

## Ukraynalı politoloq: Azərbaycan türk dünyası dövlətlərinin qarşılıqlı fəaliyyəti üçün strateji əhəmiyyət kəsb edir



Türkdilli dövlətlərin Əməkdaşlığı Şurasının (Türk Şurası) liderlərinin VIII Zirvə Görüşü mühüm nəticələr verib. Bu nəticələr arasında ən çox müzakirə edilən - qurumun adının dəyişdirilərək Türk Dövlətləri Təşkilatı adlandırılması təşəbbüsü qurum iştirakçılarının əməkdaşlığı daha da dərinləşdirmək niyyətinə dəlalət edir. Bu istiqamətdə işlərin intensivləşməsi türk dünyasında inteqrasiya proseslərinin vəziyyətini müzakirə etməyə əsas verir.

Ukrayna Milli Strateji Araşdırmalar İnstitutunun eksperti, politoloq Nikolay Zamikula bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib. Onun sözlərinə görə, Azərbaycan bütün türk dünyası dövlətlərinin qarşılıqlı fəaliyyəti üçün strateji əhəmiyyət kəsb edir.

Nikolay Zamikula deyib: "Türkiyə Respublikası türk dünyasında gedən inteqrasiya proseslərinin şəksiz lideridir. Bu, bir sıra amillərlə bağlıdır. Türkiyə beynəlxalq arenada ən güclü türk dövlətidir. Lakin türk inteqrasiyası proseslərinin perspektivləri barədə danışmalı olsaq, bu mənada Azərbaycanın rolu heç də az deyil. Bu proseslərin dərinləşməsi Bakının iştirakı olmadan faktiki mümkün deyil. Azərbaycan türk dünyası dövlətlərinin qarşılıqlı fəaliyyəti üçün strateji əhəmiyyət kəsb edir".

Politoloq vurğulayıb ki, Azərbaycanın coğrafi mövqeyi onu Türkiyə ilə Mərkəzi Asiyanın türk dövlətləri arasında əlaqələndirici elementə çevirir. Türkiyə Respublikasının potensial imkanları çox olsa da, coğrafi mənada o, türk dünyasının periferiyasında yerləşir. Əgər Bakı müvafiq səyləri dəstəkləməsə, Ankara öz təsirinin proyeksiyasını təmin edə, inteqrasiya proseslərinin flaqmanı rolu oynaya bilməz.

Geosiyasi mənada Ankara bütün türk dünyasının lideri rolunda çıxış edir. Lakin bu halda Bakı türk birliyinin bünövrəsinin əsas elementi kimi qalır. Onsuz türk xalqlarının gələcək inteqrasiyasının perspektivləri barədə danışmaq mümkün deyil.

## Azərbaycanda xarici diplomların tanınması qaydası dəyişdi



Təhsildə Keyfiyyət Təminatı Agentliyi "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında" Konvensiyanın prinsipləri-ni, o cümlədən, bu mövzuda qabaqcıl dünya ölkələrinin praktikasını nəzərə alaraq xarici diplomların tanınması məqsədilə həyata keçirilən ekspertiza çərçivəsində tətbiq olunan yanaşmaya dəyişiklik edib.

Agentlikdən SİA-ya verilən məlumata görə, dəyişikliyə əsasən şəxsin magistratura səviyyəsində yiyələndiyi ixtisasla onun bakalavriat səviyyəsində əldə etdiyi ixtisas arasında uyğunluğun gözlənilməsi zəruri hesab edilməyəcək.

Yəni bakalavriat səviyyəsində bir ixtisasa yiyələnmiş tələbələr öz təhsillərini xarici dövlətdə fərqli ixtisas sahəsi üzrə davam etdirəcəkləri təqdirdə diplomlarının ölkə ərazisində tanınmasında problem yaranmayacaq.

Beləliklə, yeni yanaşmaya uyğun olaraq bu günə kimi yuxarıda qeyd olunan səbəbdən xarici diplomlarının ölkə ərazisində tanınmasından imtina olunmuş vətəndaşlar qəbul edilmiş qərara yenidən baxılması məqsədilə Təhsildə Keyfiyyət Təminatı Agentliyinə yeni ərizə ilə müraciət edə bilərlər.



# Avrasiyanın siyasət meydanında yeni aktor: -

# Türk Dövlətləri Təşkilatı

**Dünya əhalisinin 2,15 faizinə və dünyanın quru hissəsinin 1 faizinə sahib olan 7 türk dövləti ötən həftənin cümə günü İstanbulda baş tutan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə bu birliyi bir az da genişləndirərək siyasət meydanında Türk Dövlətləri Təşkilatı adlı yeni aktorun yarandığı barədə qərar verdilər. Macarıstanın qərbindən, Qırğızıstanın şərqinə qədər olan 6 min 149 kilometrlik geniş bir coğrafyanı təmsil edən Türk Dövlətləri Təşkilatı (TDT) hər anlamı ilə Avrasiyanın yeni beynəlxalq aktoru olaraq, dünyanın iqtisadi-siyasətinin önəmli bir oyunçusu olacak, Azərbaycan Prezidenti İlham Əliyevin də dediyi kimi, Türkiyənin Prezidinti Rəcəb Tayyib Ərdoğanın liderliyi və varlığı ilə Türkiyə dünyada bir güç mərkəzinə çevrildikcə Türk Dövlətləri də Türkiyənin gücündən güc qazandılar.**

Türkdilli Ölkələrin Əməkdaşlıq Təşkilatının Türk Dövlətləri Təşkilatına çevrilməsinin ən təməl prinsiplərindən biri və birincisi əlbəttə qardaş ölkələr arasında məqsəd birliyinin olmasıdır. Əgər Türkdilli ölkələrin liderləri birlik üçün bir araya gəlməyi bacarıblarsa, deməli bundan kənarda olan əngəlləri də birgə aşmağı bacaracaqlar. Bu bir danılmaz faktdır ki, bu birliyin yaranmasında başlıca rolu Türkiyə və Azərbaycan oynayıb. Hər iki ölkənin liderləri - Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin çoxillik zəhməti, fəaliyyəti olmasaydı Türkdilli dövlətlərin indiki təşkilatlanmasından söhbət gedə bilməzdi.

Prezident R.T.Ərdoğanın son 20 ildə Türkiyə Cümhuriyyətini regionun liderinə çevirməsi, G20 ölkələri ilə bir sırada yer alması diqqətdən yayınmamalıdır. Prezident Ərdoğanın uzaqgörən siyasəti nəticəsində bu coğrafiyada yeni bir gələcək quran Türkiyənin nailiyyətləri bu addımların atılmasını təmin etdi. Azərbaycanın isə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra başlatdığı iqtisadi inkişaf kursunu İlham Əliyevin uğurla davam etdirməsi və nəticə etibarilə Azərbaycanın işğalçı Ermənistanı ağır məğlubiyyətə uğradaraq ərazi bütövlüyünü təmin etməsi dünya birliyində, xüsusən də Türkdilli ölkələr arasında ölkəmizin nüfuzunu xeyli yüksəltmiş oldu. Sadalanan bu faktorlar İki qardaş ölkənin birləşməsini, bir olmasını təmin etdi.

Türkiyənin milli suverenliyinə və iradəsinə əsaslanan addımları, yerli texnologiyanın imkanlarından istifadə etməklə müdafiə sənayesində əldə etdiyi uğurlar, münasibətlərdəki sağlam məqsəd, təkəbbürsüzlük digər Türkdilli ölkələri onunla bir sırada durmağa, birgə addımlamağa, imkanları birləşdirməyə sövq edə bilib. TDT ilə Avrasiyada 4 milyon 828 min kvadrat kilometr sahədə kök atacağımız, böyüyəcəyimiz, inkişaf edəcəyimiz və daha sürətlə çiçəklənəcəyimiz yeni bir dövrə qədəm qoyuruq. Prezident Ərdoğanın da dediyi kimi, "günəşin yenidən şərqdən doğacağı" vaxtlar yaxınlaşır. Min illər boyu sivilizasiyanın beşiyi olan "Türküstan coğrafiyası" yenidən bütün bəşəriyyət üçün cazibə və maariflənmə mərkəzinə çevriləcəkdir. Münasibətlərimizi sivilizasiyamızın və mədəniyyətimizin təbii yol xəritəsinə uyğun olaraq hər sahədə inkişaf etdirməyə davam edəcəyik.

Azərbaycan Prezidenti İlham Əliyevin İstanbul sammitində çıxışı zamanı söylədiyi fikirlər TDT-nin önəmini ortaya qoyur: "Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk. Bizim xalqlarımız arasındakı birlik, qardaşlıq gündən-günə möhkəmlənir və biz bu gün böyük coğrafiyanı əhatə edirik, böyük iqtisadi, siyasi, hərbi gücü bu coğrafiyada ehtiva edirik. Bizim ölkələrimizdə zəngin təbii qaynaqlar var, müasir infrastruktur var, nəqliyyat yolları var. Türkiyə hərbi, iqtisadi və sənaye gücə malik olan ölkədir. Təkcə onu demək kifayətdir ki, Türkiyə NATO-nun ikinci ən güclü ölkəsidir və bunu öz maraqlarını və dünyada sülhü təmin etməklə dəfələrlə göstərmişdir. Ona görə mən çox ümidliyəm ki, bizim təşkilatımız qarşıda duran bütün vəzifələri icra edəcəkdir".

Qlobal ticarətin Asiyadan - Sakit okeandan Atlantik okeanına yeni "axın" qazandığı növbəti 25-50 il TDT coğrafiyasını qlobal nəqliyyat və logistika dəhlizləri baxımından da əvəzolunmaz edir. Bu səbəbdən də güclü "kök", "qohumluq" və "qardaşlıq" əsasında qurulan bu "müqəddəs" birlik, siyasi həmrəylik, güclü iqtisadi əməkdaşlığa və sıx ticarətə, mədəni əməkdaşlığa, insani-ictimai əlaqələrimizi daha da inkişaf etdirməyə əsas verir. "Milli", "vətənpərvər" və "Türküstan coğrafiyası" idealları ilə yetişmiş bir nəslin nümayəndəsi olaraq, 12 noyabr cümə günü Türk Dövlətləri Təşkilatının elan etdiyi duyğular fırtınasını təsvir etmək çətindir. XXI əsr yeni güc mərkəzlərinin formalaşmasının sürətlənəcəyi və Sakit və Atlantik okeanları arasında yeni balansın qurulacağı əsrdir. Türk Dövlətləri Təşkilatının uğuru bu proseslərin formalaşmasında tamamilə fərqli inkişaflara səbəb olacaq. Əsla bunu unutmayaq...

*V.VƏLİYEV*

# "Rəqəmsal İpək Yolu" layihəsi "Türkmentel 2021" konfransında təqdim edilib



"AzerTelecom" şirkəti tərəfindən icra edilən və Avropanı Orta və Cənubi Asiyaya bağlayacaq rəqəmsal telekommunikasiya dəhlizinin formalaşmasını nəzərdə tutan "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsi 10-11 noyabr tarixlərində Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilmiş "Türkmentel 2021" - Türkmənistan Telekommunikasiya və İT Konfransında təqdim edilib. Hibrid formatda (həm Aşqabadda canlı olaraq, həm də beynəlxalq tərəfdaşların onlayn formatda iştirakı ilə) keçirilmiş konfransda rəqəmsallaşma, kiber təhlükəsizlik, vahid milli kommunikasiya şəbəkəsinin qurulması, kosmik texnologiyalar kimi mühüm mövzular üzrə müzakirələr aparılıb, təqdimatlar edilib. "AzerTelecom" şirkətinin Direktorlar Şurasının Sədri Fuad Allahverdiyev konfransda çıxış edib. O, Avropa ilə Cənubi Asiya arasında Azərbaycan və Türkmənistan vasitəsilə formalaşan "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) və bu qlobal rəqəmsal dəhlizin Xəzər dəniz seqmenti olan Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə magistral fiber-optik kabel xətti (Transxəzər Fiber Optik Kabel Xətti) layihəsi barədə danışıb. O Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin inkişafında bu mühüm rəqəmsal infrastruktur layihəsinin rolunu vurğulayıb.

Bildirilib ki, Avropadan Asiyaya internet və kontentin ötürülməsinə imkan verəcək "Rəqəmsal İpək Yolu" qitələrarası ən qısa marşrut olaraq həm də daha sürətli məlumat ötürülməsini təmin edəcək. Azərbaycanla Türkmənistan arasında Xəzər dənizinin dibi ilə magistral kabel xəttinin çəkilməsi nəticəsində Avropa ilə Cənubi Asiya arasında "Rəqəmsal İpək Yolu"nun formalaşması bu rəqəmsal marşrutun ətrafında yerləşən digər regional tərəfdaşlar üçün də yeni əməkdaşlıq imkanları yaradacaq, Mərkəzi Asiya və Qafqazda rəqəmsallaşmaya təkan verəcək.

"AzerTelecom" Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Şirkət müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir. "AzerTelecom" Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

Şirkət Avropanı Orta və Cənubi Asiyaya bağlayan irimiqyaslı rəqəmsal infrastruktur layihəsi olan "Rəqəmsal İpək Yolu" layihəsini icra edir. "NEQSOL Holding"in təşəbbüsü ilə həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi 2020-ci ildə ABŞ-da keçirilən "Qlobal Strateji İnfrastruktur Liderlik Forumu"nda (Global Strategic Infrastructure Leadership Forum) Asiyada beş ən yaxşı strateji infrastruktur layihələrindən biri kimi seçilib.

# Sosial şəbəkələrdə cinayət hadisələri niyə baş verir- KİMDİR GÜNAHKAR?

## EKSPERT AÇIQLADI



"Həyatımıza müəyyən yeniliklər və inqilablar gətirmiş internet, sosial şəbəkələr getgedə həyatın bütün sahələrinə, insan fəaliyyətinin müxtəlif istiqamətlərinə öz müsbət və mənfi təsirlərini göstərməyə başlamışdır. İnkişaf etmiş, intellektual səviyyəsi yüksək olan cəmiyyətlərdə bu cür cinayətkarlıq problemləri var. Sosial şəbəkələrdəki cinayətkarlıq hallarına qarşı müxtəlif ölkələrin hökumət, dövlət başçıları, parlament və beyin mərkəzləri düşünürlər ki, maksimum internetin uşaqların, yeniyetmələrin və gənclərin mənəvi, psixoloji durumuna mənfi təsirindən qurtulması üçün qanunvericilikdə dəyişikliklər edilsin, yeni normativ aktlar qəbul edilsin". Bu sözləri SİA-ya açıqlamasında yazıçı, kulturoloq, tənqidçi ekspert Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, bu barədə eyni zamanda istər milli, istərsə də beynəlxalq səviyyədə konvensiyalar hazırlanmalıdır: "Biz də bunu dəstəkləyirik. Çünki son illər həm sosial şəbəkələrdə, həm internetdə istər virtual cinayətkarlıq, istər real cinayətkarlığa zəmin yaradan kontentin artmasının səbəbkarları məhz internetdən maarifləndirici, öyrədici, təhsil, elm, mədəniyyət, estetik zövqü formalaşdıran yeni vasitə kimi istifadə etməyənlərdir. Daha dəqiq desək, cinayətkarlar daha çox öz mənfi əməllərinin qurbanlarını seçmək üçün məhz internetdən, sosial şəbəkələrdən edilər. Son vaxtlar beynəlxalq insan alveri, beynəlxalq narkotika ticarəti, qlobal mənada cinayətkar dəstələr, şəbəkələr internet üzərindən müxtəlif lotereyalar və onlayn aldadıcı proqramlar hazırlayıb nəinki öz ölkələrində, həmçinin digər ölkələrdə yayan müxtəlif millətlərin nümayəndəsindən ibarət virtual mafya qrupları yaranıb. Bu cinayətlərlə yalnız hansısa milli, regional yox, həm də qlobal səviyyədə mübarizə aparılmasa, sözsüz ki, böyük problemlərlə qarşılaşacayıq".

Aydın Xan Əbilov fikirlərinə davam edərək həmçinin qeyd edib ki, son vaxtlar yayılan "patı" adlanan sintetik və yarım-sintetik narkotik maddələrin satışı və digər bu cür mənfi hallar məhv internet üzərindən aparılır: "Təəssüflər olsun ki, "Facebook", "İnstaqram", "TikTok", "Teleqram" və "Whatsapp" kimi platformalar artıq insanlar üçün, xüsusilə də yeniyetmələr və gənclər üçün böyük tələyə çevrilməkdədir. Cinayətkarlar əlbəttə ki, yeni texnologiyalardan yaranmağa çalışırlar. Amma dövlət, hüquq-mühafizə orqanları, beyin mərkəzləri, ictimai qurumlar, kütləvi informasiya vasitələri, mobil rabitə və internet bağlantısı yaradan şirkətlər müxtəlif proqramlar, filtrlər yaradırlar ki, bu cür mənfi hallara qarşı mübarizə aparılsın. Sosial şəbəkələrdə olan virtual cinayətlərin ən dəhşətlisi isə fərdlərin həyatına vurduqları zərbələrdir. Əgər sivil bir cəmiyyətdə hər hansı bir şəxsi şəkil paylaşılırsa, həmin adam cinayət məsuliyyətinə cəlb edilir. Onların böyük əksəriyyəti həbs olunur. Ancaq təəssüflər olsun ki, bu cür insanlara qarşı ağır cəzalar olmadığına görə onlar bir neçə ildən sonra azadlığa çıxaraq yenidən həmin işlərlə məşğul olurlar. Hər hansı bir şəxsin fikrinə, yanlış mövqeyinə görə onun "linç" edilməsi artıq sosial şəbəkələrdə dəbdə olan cinayət növlərindən birinə çevrilib. Çox təəssüflər olsun ki, dövlət qurumları, hüquq-mühafizə orqanları bu cür hallara qarşı ciddi deyil. Bu cür hadisələri törədənlərin elə bir cəzası olmalıdır ki, onlar bir daha bu əməllərə əl atmasınlar".

*Arzu Qurbanzadə*

# Xalqımız şəhidlərimizin əziz xatirəsini həmişə uca tutur

## YAP Masallı rayon təşkilatının fəalları şəhidin məzarını ziyarət ediblər






Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının rəhbərliyi və YAP fəalları rayonun Hüseynhacılı kəndindən olan Novruzov Elçin Qismət oğlunun anım günündə məzarını ziyarət ediblər. Ziyarətçilər şəhidin məzarı üstünə gül dəstələri düzmüş və ruhuna dualar oxumuşlar. Daha sonra Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının fəalları şəhidin ailə üzvləri ilə görüşmüşlər.

***Rəfiqə***



## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları Şəhid ailəsini ziyarət edib

Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 16 noyabr 2021- ci il tarixdə Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Yuxarı Cürəli kəndindən olan şəhid Nəcəfli Sadiq Nüsrət oğlunun ildönümü ilə əlaqədar olaraq ailəsini ziyarət ediblər. Daha sonra şəhidin məzarı ziyarət edilib və dərin ehtiramla yad edilərək məzarının üzərinə tər gül dəstələri düzüblər.

Allah rəhmət eləsin!

***R. Kamalqızı***



## Quba rayonunda şəhid Bayramov Ruslan Azər oğlunun ildönümü qeyd olunub

Quba rayonunun Əlibəyqışlaq kəndindən olan şəhid Bayramov Ruslan Azər oğlunun ildönümü YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və partiya fəalları tərəfindən anılıb. Şəhidin Əlibəyqışlaq kənd qəbiristanlığında məzarı ziyarət olunub, əziz xatirəsi ehtiramla yad edilib. Ruslan Bayramov 2020-ci il sentyabrın 27-də başlayan ikinci Qarabağ savaşında ön cəbhədə olub. Ruslan Hadrut, Füzuli və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib. Noyabrın 8-dən 9-na keçən gecə Şuşa uğrunda gedən qanlı döyüşdə ürəyinə dəyən snayper gülləsindən qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.






Leytenant Bayramov Ruslan Azər oğlu şəhadətindən sonra Cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur. Şəhidlərimiz torpaqlarımızın düşməndən azad olunması uğrunda öz qanından, canından keçərək Şəhidlik zirvəsinə ucalıblar. Sonra Y.Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb və ailəsinə səbr diləyib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## YAP Səbail rayon təşkilatı şəhidin ildönümündə iştirak edib



YAP Səbail rayon təşkilatı Vətən müharibəsində şəhid olan Əliyev Fərid Pirəli oğlunun ildönümündə iştirak edib. Təşkilatın sədri Muxtar Nağıyev və aparat əməkdaşları Vətən müharibəsi şəhidi Əliyev Fərid Pirəli oğlunun məzarını və ailə üzvlərini ziyarət edib.



Vətən müharibəsinin ilk günlərindən döyüşə atılan Fərid Əliyev Şuşa istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhid Fərid Əliyevin ailə üzvləri şəhid ailələrinin, qazilərimizin, hərbçilərimizin Ölkə başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın və Yeni Azərbaycan Partiyasının hər zaman diqqət və yüksək qayğısı ilə əhatələndiklərini bildiriblər.

***Rəfiqə***



# Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası 29 il qələbələrlə

**Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən və Azərbayacanın qazandığı uğurların bələdçisi kimi keçdiyi 29 ilə yaxın şərəfli yolda Yeni Azərbaycan Partiyası ildönümünü 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəmizin bir ili dövründə qeyd etməsi 760 min üzvü olan hər bir partiya üzvünü qürurlandırır, fəxarət duyuruq. Çünki tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası yarandığı gündən xalqın partiyası olduğunu, həmrəyliyini, birliyini göstərdiyi kimi, 44 günlük müharibədə də bu birliyi nümayiş etdirərək Qalib Liderimiz, Ali Baş Komandan, Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin "dəmir yumruq" əməliyyatına əməl edən Güclü Azərbaycan Ordumuzun rəşadətli əsgər və zabitləri birlik nümayiş etdirərək 30 illik torpaq həsrətinə son qoydu, haqq, ədalət, ərazi bütövlüyümüz bərpa olundu, Qarabağ Azərbaycandır! Nidasını qoydu. Yeni Azərbaycan Partiyası bu yolda öndə olub.**



***HƏMİD PƏNAHOV, YAP Qazax rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən***

Cari ilin mart ayının 5-də keçirilən qurultayında Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin partiyanın VII qurultayında dərin məzmunlu, proqram xarakterli nitqində birliyimizin, həmrəyliyimizin, partiyanın təsis olunmasından ötən 29 ilə yaxın müddətdə Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə, yeniləşməyə doğru getdiyi vurğulanıb. Dövlət başçımız: "Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox",-deyən Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının hansı çətin şəraitdə yaradılmasından, həmin dövrdə xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi olaraq 91 nəfər ziyalının onları hər an təqib edən təhdidlərdən qorxmadan, heç nədən çəkinmədən, böyük cəsarət göstərərək, dövlətin maraqlarını hər şeydən üstün tutaraq ulu öndər Heydər Əliyevə müraciət etməsindən, partiyanın təsis konfransının hansı səbəblərdən Bakıda deyil, Naxçıvanda keçirilməsindən, ümumiyyətlə, 1992-ci ilin noyabr ayının gənc Azərbaycan dövlətinin həyatında yeni bir mərhələyə yol açmasından geniş bəhs etdi.

### "Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır"

Bu, danılmaz faktordur ki, Yeni Azərbaycan Partiyasının cəmiyyətdə alternativsiz siyasi qüvvə kimi qəbul olunması onun ötən 29 illərdə hər bir fərdin arzu və istəklərinin təminatçısına çevrilməsi ilə şərtlənir. Bu mənada xalqın taleyində müstəsna rol oynayan, Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, bir sözlə, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib davamlı sabitlik, tərəqqi və iqtisadi yüksəliş yoluna çıxaran bir siyasi qüvvənin - Yeni Azərbaycan Partiyasının yaranması və Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə alan partiyamız ətrafında toplaşan vətəndaşlarımızı öz milli birliyini, vətəndaş həmrəyliyini, sabitlik və tərəqqinin təminatçısı kimi bu günə kimi nümayiş etdirməkdədirlər. Azərbaycanın son illərdə keçdiyi mürəkkəb və ziddiyyətli yola nəzər salarkən YAP-ın xalqın və dövlətin taleyində mühüm rol oynayan partiya olduğu bir daha təsdiqini tapır. Bu birlik, həmrəylik ondan irəli gəlir ki, Yeni Azərbaycan Partiyasına Heydər Əliyev kimi dünya şöhrətli liderin sədrlik etməsi partiyanın cəmiyyətdə böyük siyasi nüfuza malik olmasını şərtləndirirdi.

Belə ki, o illərdə Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsinin əngəllənməsi üçün Konstitusiyaya yaş senzi ilə bağlı qondarma maddə daxil edilmişdi. 1992-ci ilin aprel ayında xalqın iradəsinin ziddinə qəbul edilmiş bu antidemokratik addıma etiraz olaraq müxtəlif aksiyalar, imzatoplama kampaniyaları keçirilirdi. Ziyalılar, sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq 1992-ci il oktyabr ayının 16-da Ulu Öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə müraciət etdilər. Oktyabrın 24-də Ulu Öndərin ziyalıların müraciətinə məktubla verdiyi müsbət cavab Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyəti üzərinə götürməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Qeyd edək ki, müraciətlər "SƏS" qəzetində dərc olundu. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı naminə YAP-a rəhbərlik etməyə razılıq verməsi onun böyük siyasətə qayıdışının əsasını qoydu. 1992-ci il noyabrın 21-də 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvanda təsis konfransını keçirdi, partiyanın proqram və nizamnaməsini qəbul etdi. Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Qısa bir müddətdə - Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevə etimad göstərərək Onu özünün Prezidenti seçdi. Bununla da tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası müstəqilliyimizin qorunmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində, tənəzzül etmiş iqtisadiyyatımızın inkişaf etdirilməsində və demokratik təsisatların bərqərar olunmasında siyasi flaqman rolunu hakim siyasi partiya olaraq öhdəsinə götürmüşdür.

Və bu gün ulu öndər Heydər Əliyev ideyaları Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu, real həqiqətdir ki, tarixi şəxsiyyətin yolunu, ideyalarını yalnız tarixi şəxsiyyətlər davam etdirə bilər. Məhz bu səbəbdəndir ki, dünya şöhrətli dövlət xadimi, Ulu öndər Heydər Əliyev hələ 2003-cü ildə siyasi uzaqgörənliklə xalqa müraciətində hakimiyyət sükanının cənab İlham Əliyevə etibar olunmasını məsləhət bildi: "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir".

2003-cü, 2008-ci, 2013-cü və 2018-ci illərdə Heydər Əliyev siyasi kursunun alternativsiz davamçısı kimi Prezident seçkilərinə qatılan cənab İlham Əliyevin qələbəsi həm də Yeni Azərbaycan Partiyasının zəfəri, nailiyyəti idi. Bu gün Prezident, Yeni Azərbaycan Partiyasının sədri qalib Liderimiz İlham Əliyev Yeni Azərbaycan Partiyası qarşısında dayanan vəzifələrin öhdəsindən layiqincə doğruldub.

### 44 günlük Vətən müharibəsi dönəmində milli birlik modelini dünyaya nümayiş etdirən Yeni Azərbaycan Partiyası

Hakim partiyanın 44 günlük Vətən müharibəsi dönəmində milli birlik modelini dünyaya nümayiş etdirən Azərbaycanın siyasi həyatında yeni bir strategiyanın - siyasi həmrəylik, inteqrasiya və milli birlik modelinin əsasını qoyması xüsusi ilə diqqətəlayiqdir. Ölkə Prezidenti İlham Əliyevin qurultayda proqram xarakterli çıxışı, vacib qərarların qəbul edilməsi partiyanın idarə olunmasının və partiyada fəaliyyətin tənzimlənməsinin yeni, çevik mexanizminin yaradılması, təkcə Yeni Azərbaycan Partiyasının üzvlərinə deyil, bütövlükdə Azərbaycan cəmiyyətinə verilən, xalqımızın yüksək mənəvi dəyərlərindən, dünyagörüşündən qaynaqlanan, ölkəmizin siyasi münasibətlər sisteminin gələcəyinə yönəlmiş mesaj oldu. Sentyabrın 27-dən başladığı zəfər yürüşü bütün dünyaya göstərdi ki, onun savaşı haqq savaşıdır, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 gün ərzində 30 ilin həsrətinə son qoydu, avantürist Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altında qalan torpaqlarımızı əsl sahibinə qaytardı. Bir sözlə, bu gün Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi unudulmaz töhfələrlə, müstəqilliyimizlə, bu günümüzlə inkişafımızla, xoşbəxt həyatımızla fəxr edir və hər bir Azərbaycan vətəndaşı Vətənini, xalqını sevən hər bir kəs Yeni Azərbaycan Partiyasını, Ulu Öndər Heydər Əliyevə və böyük rəhbərin sədaqətli davamçısı Prezidentimiz İlham Əliyevlə qürur duymağa haqlıdır. Belə bir gündə uğurlarımızla sevinməyə, öyünməyə dəyər. Və Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyası olaraq bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq.

# DTX sərhəddəki vəziyyətlə bağlı yalan məlumat yayanlara

## XƏBƏRDARLIQ EDİB

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) sərhəddəki vəziyyətlə bağlı yalan məlumat yayanlara xəbərdarlıq edib. SİA DTX-nin saytına istinadən xəbər verir ki, xəbərdarlıqda deyilir: "Son günlər Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən dövlət sərhədində törədilən bəzi təxribatlarla bağlı bir sıra kütləvi informasiya vasitələri və sosial şəbəkə resurslarında həqiqəti əks etdirməyən, əhali arasında vahimə yaratmaq, ictimai rəyi çaşdırmaq məqsədi güdən məlumatlar yayımlanmaqdadır.**



Diqqətə çatdırmaq istərdik ki, bu tip qərəzli, saxta və ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən xəbərlərin tirajlanması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Vətəndaşlarımızı Azərbaycanın milli təhlükəsizliyinə və maraqlarına zərər vuran, əsassız, aidiyyəti dövlət orqanları ilə dəqiqləşdirilmədən, rəsmi mənbələrə istinad olunmadan yayımlanan belə məlumatlara inanmamağa çağırırıq".

# Rusiya və İran prezidentləri Qarabağı müzakirə edib

**Rusiya prezidenti Vladimir Putinlə İran prezidenti İbrahim Rəisi Qarabağ məsələsini müzakirə edib. SİA-nın məlumatına görə, bu barədə Rusiya prezidentinin mətbuat xidməti bildirib. Qeyd olunub ki, V.Putin iranlı həmkarını Rusiyanın Qarabağda atəşkəs rejiminin təmin olunması üzrə atdığı addımlar barədə məlumatlandırıb.**





"Prezidentlərin telefon danışığı zamanı Qarabağla bağlı vəziyyət də müzakirə olunub. Vladimir Putin Rusiya tərəfinin atəşkəs rejiminin təmin olunması, təsərrüfat və nəqliyyat əlaqələrinin açılması, bölgədə dinc həyatın təşkil olunması ilə bağlı gördüyü tədbirlər barədə həmkarını məlumatlandırıb" - deyə, məlumatda bildirilir.

# “Tindən gizlənib əsgərə qumbara atmaq şərəfsizlikdir”

## Hərbi ekspert Ədalət Verdiyevin SİA-ya müsahibəsini təqdim edirik:



***- Son günlər Qarabağda vəziyyət gərginləşib və erməni tərəfi ard-arda təxribata əl atır. Qarabağda nə baş verir və bu təxribatlar nəyə hesablanır?***

- Zəfər Günü ərəfəsində erməni tərəfi daha çox təxribatlara əl atır. Digər bir tərəfdən, ermənilərin Kəlbəcər və Laçın istiqamətində hər gün və intensiv şəkildə atəşkəsi pozmaları ilə rastlaşdıq. Başqa bir məsələ, Daşaltı postunda, yəni bizim postumuza ermənilər tərəfindən əl qumbarasının atılması və üç əsgərimizin yaralanması məsələləri da var. Bunları saymaqla bitmir. Onlarla belə faktlar saymaq olar. Bu bir daha göstərir ki, erməni tərəfi hələ də qələbə qazanan Azərbaycanın tələblərini qəbul, öz məğlubiyyətini etiraf, birgə bəyannatın şərtlərini isə yerinə yetirmək istəmir. Sərhəd delimitasiyasından tutmuş, erməni silahlıların Qarabağdan çıxarılmasına qədər bir çox proseslər ermənilər və bu proseslərə nəzarət edəcək sülhməramlılar tərəfindən yerinə yetirilmir. Dolayısı ilə əgər ermənilər öz üzərinə düşən öhdəliyi yerinə yetirmirsə, rus sülhməramlıları da öhdəliklərini tam yerinə yetirmirsə o zaman Azərbaycanın da bu öhdəliklərə riayət etmək ehtiyacı aradan qalxır.

***- Erməni terrorçu Norayr Mirzoyanın Ermənistana təhvil verilməsi gələcək hadisələr üçün zəmin yaradır? Əslində necə olmalı idi? Terrorçu kimə təhvil verilməli və necə cəzalandırılmalı idi?***

- Burada məsələ ondan ibarətdir ki, Mirzoyanın bu mənfur hücumu Azərbaycana və Azərbaycan hərbiçilərinə qarşı həyata keçirilib. Həmçinin, o, Azərbaycan ərazisində saxlanılıb. Mən, hüquqşünas deyiləm. Amma bilirəm ki, cinayət baş verdiyi ərazi üzrə araşdırılmalı, tədqiqat aparılmalı və ərazi üzrə məhkəmə prosesinə baxılmalıdır. Burada isə Mirzoyan rus sülhməramlıları tərəfdə olub. Yəni, onu bizim əsgərlər saxlamayıb. Əsgərlərimiz humanistlik göstərib. Halbuki, əsgər təcrübəsi hücumedənə qarşı adekvat və xəbərdarlıq etmədən açmalıdır. Əgər posta dayanan əsgərə birbaşa hücum olarsa, o zaman xəbərdarlıq atəşi açmadan və xəbərdarlıq etmədən hücum edəni məhv edə bilər. Buna görə əsgəri kimsə günahlandıra bilməz.

***- Ermənistanın hər bir təxribatından sonra sanki buna cavab olaraq Azərbaycan ordusu olaraq ya mövqelərimiz irəliləyir, ya da postu nəzarətə götürürük. Sosial şəbəkələrdə paylaşılan görüntülərə əsasən Azərbaycan hərbiçiləri erməni postunu ələ keçiriblər. Bu barədə nə deyə bilərsiniz? Söhbət hansı postdan gedir?***

- Böyük ehtimalla bu Laçın ərazisidir. Topoqraflardan xahiş etmişəm ki, dəqiq koordinatlara baxsınlar. Hər dəfə Ermənistan sərhədlərin delimitasiya prosesini ləngitmək, sülh müqaviləsini uzatmaq, erməni silahlılarının Qarabağdan çıxarılmasını uzatmaq üçün bəlli bir fokslar göstərir. Laçın dəhlizinin açılmasından 1 il keçir. Biz 1 ildir Laçın dəhlizini onlara təqdim etmişiksə, onlar bundan istifadə edirlərsə, İrəvanda yaşayan erməni rahatlıqla Qarabağa gedə bilirsə, o zaman Azərbaycanlı niyə Naxçıvana gedə bilməsin?! Ermənilər yaxşı anlayır ki, növbəti görüşdə bu suallara cavab verməli olacaq.

***- Bölgədə və yaxud Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olmamasında əslində kim maraqlıdır?***

- Ermənistanla Azərbaycan arasında münaqişənin ən qısa müddətdə nizamlanmasında çox dövlətlər maraqlı deyil. Sülhməramlıların da fəaliyyətində görürük ki, onlar münaqişənin qısa müddətdə başa çatmasının tərəfində deyillər. Şuşa istiqamətində bir neçə ay öncə Azərbaycan tərəfi cavab atəşi açmışdı. Rusiya isə dərhal ”Azərbaycan atəşkəsi pozub” və s. kimi bəyanat səsləndirdi. Halbuki, dünən rus sülhməramlılarının gözü qarşısında Azərbaycan əsgərinə qumbara atılıb. Rusiya Müdafiə Nazirliyi isə bu mənfur terror aktına münasibət bildirməyib. Bu azmış kimi terrorçunu da götürüb, həmin terrorçunu göndərən tərəfə təhvil verib.

***- Rusiya sülhməramlılarının bölgədən çıxarılma ehtimalını nəzərdən keçirmək lazımdırmı?***

- Əslində, Azərbaycan tərəfi istənilən halda öz ərazisinə kimi buraxıb, kimi buraxmayacağının qərarını verə bilər. Biz, bu məsələdə kimsədən asılı deyilik. Biz, Rusiyanı öz ərazimizdən 3 dəfə yola salmışıq. Dördüncü dəfə də yola salınmasına az vaxt qalıb. Hesab etmirəm ki, bu məsələlər diplomatik səviyyədə müzakirə olunmur. Amma biz, müzakirələrin nəticəsini hələ ki görmürük. Ona görə də Azərbaycan müəyyən addımlar ata bilər. Amma düşünmürəm ki, bu addım atılacaq. Çünki, biz davamlı olaraq imzamıza hörmət edirik. Biz istəmirik ki, verdiyimiz sözü vaxtından əvvəl pozaq.

***- Rusiya son günlər baş verənlərə laqeyd münasibət göstərir və yaxud da ümumiyyətlə reaksiya vermir. Bu barədə nə deyə bilərsiniz?***

- Bu, əslində siyasi məsələdir. Lakin, mən bir vətəndaş kimi deyə bilərəm ki, Rusiya sülhməramlıları bu məsələdə tərəfdir. Tərəf olduğu halda öz tərəfini tutduğu Ermənistan hakimiyyətinin necə əleyhinə söz desin?!

***- Bölgədə son vaxtlar gərginliyin artması bizi hansı məcraya aparır? Növbəti terror və antiterror əməliyyatı gözləniləndir?***

- Bir neçə aydır olan görüntülərdən məlum olur ki, Ermənistanın xalq, toplum, ordu olaraq müqavimət potensialı yoxdur. Əgər, əks tərəfin müqavimət potensialı yoxdursa, burada artıq savaş, döyüş və əməliyyatlardan söhbət gedə bilməz. Tindən gizlənib əsgərə qumbara atmaq şərəfsizlikdir, ayıbdır. Bu dünyada normal qaşılanmaz. Yəni, əsgər əsgərlə səngərdə savaşa bilər. Bu normaldır. Maraqlı olan da odur ki, belə bir şərəfsizi indi Ermənistanda və Qarabağdakı separatçılar ”qəhrəman” adlandırır.

***Ayşən Vəli***

**A N A L İ T İ K + Ş Ə R H**

# Ermənistanda corab kimi dəyişdirilən müdafiə nazirləri

## Görünən və görünməyən səbəblər hansılardır ?




Ermənistanda müdafiə nazirlərinin, sözün əsl mənasında, corab kimi dəyişdirilməsi ilk olaraq belə nəticəyə gəlməyə imkan verir ki, ölkədə nəinki digər yüksək vəzifələrlə bağlı, eləcə də hərbi struktur vəzifələrində peşəkarlıqla əlaqəli ciddi böhranlar yaşanmaqdadır. O cümlədən, daha bir amil budur ki, Ermənistan rəhbərliyi, əslində, kadr təyinetmə məsələlərində belə müstəqil deyil və onun ölkə hüdudlarından kənar idarəolunması danılmaz fakta çevrilir. Bir müddət Ermənistanın xarici işlər naziri postunda cərəyan edən ardıcıl dəyişikliklərdən sonra bu sindromun müdafiə nazirliyinə də sirayət etməsi həm də təəccüblü görünmür. XİN-lə bağlı çox məsələlər aydındır. Lakin gəlin bir daha son dövrlərdə Ermənistanın müdafiə nazirlərinin birbirini necə və nəyə görə əvəzləmələrinə nəzər salaq.

### Qısa xatırlatma

Beləliklə, Ermənistanın 44 günlük müharibədən kapitulyant kimi ayrılmasından sonra ilk olaraq David Tonoyan kənara atıldı. O, müharibədən əvvəl ”Yeni müharibə-yeni ərazilər” tipli sərsəm tezisi ilə yadda qalmışdı.

Onu 2020-ci ilin 20 noyabr tarixində Vaqarşak Arutyunyan əvəzlədi. Bu adam da 2002-ci ildə hərbi strukturlardan qeyri-peşəkarlığına görə uzaqlaşdırılmışdı.

20 iyul 2021-ci ildə Arutyunyanı Arşak Karapetyan əvəzlədi. Arşak Kapapetyan isə Serj Sarqsyanın hakimiyyəti illərində Ermənistanın baş qərargahının hərbi kəşfiyyat rəisi vəzifəsindən kənarlaşdırılmışdı. İstefaya göndərilməsinə səbəb isə 2016-cı ildə baş vermiş dördgünlük Aprel müharibəsi başlayarkən onun cəbhə xəttində baş verənlərdən xəbərsiz olması idi. Nəhayət, bugünlərdə onu ümumiyyətlə hərbi təhsili və qabiliyyəti olmayan Suren Papikyan əvəzlədi. Papikyan müdafiə naziri vəzifəsinə baş nazirin müavini statusundan çıxarılaraq təyin olundu.

Beləliklə, Suren Papikyanın təyinatı erməni ictimai-siyasi rəyində birmənalı qarşılanmadı və çoxsaylı suallar yaratmağa başladı.

SİA caliber hərbi-analitik informasiya mərkəzinə mövzu ilə bağlı münasibətlərini bildirən ekspertlərin fikirlərini təqdim edir.

### Gürcüstan politoloqu Arnold Stepanyan: ”Paşinyan bu təyinatını Rusiya ilə razılaşdırıb”

Gürcüstanın erməni mənşəli politoloqu Arnold Stepanyana görə, buna səbəb bir neçə dənə ola bilər. SİTAT: ”Ötən il Qarabağda baş vermiş müharibədən sonra Ermənistanın müstəqilliyi kifayət qədər aşağı düşüb və bu da özü-özlüyündə ölkədə həlledici vəzifələrə təyinolunmalarda da öz təsirlərini göstərir. Təbii ki, Ermənistanda ən mühüm vəzifələrdən biri müdafiə naziri postudur. Bu vəzifəyə namizəd isə inanıram ki, Ermənistanın strateji partnyoru olan Rusiya ilə razılaşdırılır. Ona görə də düşünmürəm ki, müvafiq qərar yalnız baş nazir Nikol Paşinyanındır. Bu, çox yəqin ki, RF ilə razılaşdırılıb”.

Stepanyan hesab edir ki, Rusiya ilə, xüsusilə Qarabağdakı sülhməramlı kontingenti, ya da RF-nın cənub hərbi dairəsi ilə daha sıx əməkdaşlıq edən kadr axtarışı gedir. ”Təbii ki, qısa müddət ərzində lazımi adamı tapmaq çətindir. Bu isə Ermənistan müdafiə nazirliyi rəhbərlərinin tez-tez dəyişdirilməsinə olan səbəb kimi göstərilə bilər.

### “Bu məsələdə rəhbərliyin məsuliyyəti başqa şəxsin üzərinə atması cəhdini izləmək olar”

Başqa tərəfdən, bu kimi təyinolunmalara baxarsaq, bu zaman həmin təyinolunmaların Azərbaycan Silahlı Qüvvələri ilə toqquşmalar fonunda baş verdiyini görmüş olarıq. Və hər toqquşmadan sonra Ermənistanda müdafiə nazirləri dəyişdirilir. Bu məsələdə rəhbərliyin məsuliyyəti başqa şəxsin üzərinə atması cəhdini izləmək olar. Mövcud vəziyyətdə isə məntiq müdafiə nazirinin üzərində tamamlanır”, deyən Gürcüstan politoloqu həmçinin bildirib ki, erməni ordusunun yenidən formalaşdırılması zərurəti yaranıb, özü də qısa müddətdə. SİTAT: ”Bu nöqteyi nəzərdən mövcud çağırışlara cavab verə biləcək fəal formulanın axtarışı gedir. Və burada əsas məsələ budur ki, islahatlar aparacaq və onları birbaşa tətbiq edəcək insanla bağlı səhv etmək olmaz. Qarşıya belə bir məsələ qoyulub ki, həmin o yeganə şəxsi tapmaq lazımdır və o da önündə dayanan vəzifələri icra etməyi bacarsın. Bunun üçün isə qeyri-adi insan lazımdır”.

### Rusiyalı ekspert Aleksandr Artamonov: ”Suren Papikyanın təyin edilməsi çətin ki, İrəvanla Bakı arasında mövcud olan bəlli münasibətlərə öz müsbət təsirlərini göstərsin”

Rusiyalı ekspert Aleksandr Artamonov isə sözügedən mövzu ilə bağlı qeyd edib ki,Ermənistanın müdafiə naziri postuna ”Yelk” fraksiyasının keçmiş fəalı, bıçaqla yaralamaya görə həbsdə olmuş, daha sonra isə məktəbdə tarix müəllimi işləmiş Suren Papikyanın təyin edilməsi çətin ki, İrəvanla Bakı arasında mövcud olan bəlli münasibətlərə öz müsbət təsirlərini göstərsin.

”Bununla bağlı xatırlatmaq yerinə düşərdi ki, Ermənistan Azərbaycanı ”təcavüzdə” və ”mövqe irəliləmələrində” ittiham etməkdə davam edir. Halbuki, İrəvanın özü də azərbaycanlılara məxsus zirehli texnika hissələrinin erməni sərhədinə doğru aparılmasını inkar edir. Görünür, yaxın günlərdə müsbət nəyi isə gözləməyə dəymez, Cənubi Qafqazın siyasi barometri isə ”pis” və ”çox pis” xətləri arasında qalıb”, deyə rusiyalı ekspert bildirib.

***Rövşən RƏSULOV***

**Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranmışdır. Azərbaycanın taleyini düşünən və düşdüyü ağır vəziyyətdən xilas etmək istəyən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə xalqın müdrik oğlu Heydər Əliyevə üz tutdular.**



# "YAP-ın yaradılması tariximizin yeni inkişaf mərhələsinin başlanğıcıdır"

Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş və 91 nəfər Azərbaycan ziyalısının imzası ilə göndərilən həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Beləliklə, Azərbaycanın bütün regionlarından seçilmiş 550 nəfərdən ibarət nümayəndənin təmsil olunduğu partiyanın təsis konfransı 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. O illəri böyük fərəh hissi ilə xatırlayıram. Çünki mən də Yeni Azərbaycan Partiyasının təsis konfransının iştirakçılarından biri olmuşam.

Bu gün Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümünü qeyd etdiyimiz bir zamanda Ulu Öndər, Dahi Şəxsiyyət Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyasıdır. Yeni Azərbaycan Partiyası 21-ci əsrin partiyasıdır, III minilliyin partiyasıdır!" ifadəsini qürurla və fəxarətlə səsləndiririk.

Çünki Ulu Öndər Heydər Əliyevin yaratdığı partiya ötən illər ərzində siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi çıxış etmişdir. Qısa müddət ərzində ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası yarandıqdan bu günə qədər çox böyük, şərəfli və uğurlu yol keçmişdir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirmiş olur.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi xəttini uğurla və ardıcıl davam etdirən dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin qeyd etdiyi kimi "Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır". Sözün əsl mənasında, Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır və bu gün 29 illik uğurlu siyasi fəaliyyətimizin qələbəsini təntənə ilə qeyd edirik.

Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı dünyada misli görünməmiş tarixi, siyasi və hərbi zəfərə imza atdı. Azərbaycan Ordusunun şücaəti, rəşadəti, qətiyyəti və peşəkarlığı, xalqımızın birliyi və həmrəyliyi sayəsində 30 ilə yaxın idi işğal altında olan torpaqlarımız azad edildi. Bununla da tarixi ədalət, Azərbaycanın ərazi bütövlüyü və BMT-nin kağız üzərində qalan qətnamələri icra olundu. Bütün dünya Azərbaycanda dövlət-xalq-ordu-iqtidar birliyinin ən əzəmətli və sarsılmaz nümunəsini gördü. Qarabağımızın ürəyi, mədəniyyət beşiyimiz olan Şuşa şəhərinin işğaldan azad edilməsi ilə Ermənistanın kapitulyasiya aktına imza atmağa məcbur edilməsi Azərbaycanın gücünün, qüdrətinin, eləcə də haqqın və ədalətin təntənəsi idi. Bu günlərdə tarixi qələbəmizin birinci ildönümünü böyük sevinc hissi ilə qeyd etdik. Bu xoşbəxtliyimiz və qürurumuz əbədi və davamlı olsun! Bizlərə bu qüruru yaşadan Ümummilli Lider Heydər Əliyev siyasi irsinin varisi və layiqli davamçısı, dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevə sonsuz təşəkkür edir, qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə cansağlığı, xalqımıza xoş, firavan günlər arzu edirik.

Bizim artıq güclü dövlətimiz var - müstəqil Azərbaycan dövləti. Bu gün Heydər Əliyev siyasəti davam etdirilir və əlbəttə ki, zənginləşdirilir. Bu gün bütün guşələri nura çevrilən müstəqil Azərbaycanımızı uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri Cənab Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir. Öz əməlində Ümummilli Liderimiz Heydər Əliyev prinsiplərini yaşadan Yeni Azərbaycan Partiyasının seçdiyi əsas hədəfləri - qüdrətli və zəngin Azərbaycan, ərazi bütövlüyü, siyasi sabitlik, güclü iqtisadiyyat, davamlı inkişaf, ədalətli cəmiyyət və layiqli həyatdır!

Azərbaycan daima yaşayacaqdır! Nə qədər ki, Azərbaycan var, Yeni Azərbaycan Partiyası var olacaqdır! Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan xalqı! Yaşasın Yeni Azərbaycan Partiyası!

***VÜSAR İSMAYILOV***
***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri***



**RÖVŞƏN**
*rovsen.rasulov@mail.ru*

# Olan olmalı idi və olur da!

**Yadınızdadırsa, Ermənistanın baş naziri Nikol Paşinyan 44 günlük müharibə zamanı publikaya işləyən bəyanatları ilə guya həmin savaşda qalib gələcəyini bəyan edir, populizm xarakterli çıxışları ilə erməni əsgərlərini Azərbaycan torpaqlarına aşkar ölümə doğru göndərirdi. Görünür, bu xəstəlik Nikolda növbəti dəfə baş qaldırıb və o, bənzər çıxışlarını yenidən gündəmə gətirib. Halbuki, 2020-ci ilin noyabrından sonra regionda sülhün əldə olunmasına kifayət qədər ümidlər var idi, lakin Ermənistan (daha doğrusu, onların yerinə qərar verənlər) müharibəni seçdilər. Nə deyirik, hələ də 44 günlük müharibənin vurduğu ağır yaralardan özünə gələ bilməyən İrəvanın bu dəfə tamamilə dünya, yaxud Cənubi Qafqaz regionunun xəritəsindən silinmək istəyi varsa, buyursun - necə deyərlər, bu meydan, bu da şeytan!**

Ümumiyyətlə, regiondakı gərginliyin marağında olan qüvvələr də artıq bilməli və dərk etməlidirlər ki, çöldə 90-cı illərin sonu, 2000-ci illərin əvvəli deyil. Çöldə tamamilə fərqli zaman mövcuddur və bu zamanın özünə görə təyin etdiyi güclü oyunçuları da var. Regional güclər isə dəyişmək üzrədir və istər Qərb, istərsə də Şimal olsun - onların heç biri regional güclərə qarşı davamlı müqavimət göstərə bilməyəcəklər. O cümlədən, növbəti gərginlik Laçın-Kəlbəcər istiqamətində, eyni zamanda, Şərqi Zəngəzurda cəmləşmiş erməni qrupunun məğlubiyyəti ilə yekunlaşacaq.

Yeri gəlmişkən, təxminən 3 həftə ərzində erməni tərəfi "ən hazırlıqlı" və "ən hazırlıqlı"ları bura çəkdi, indi onlardan bəziləri hərbi əməliyyatların mənasızlığını və komandanlıq əmri cinayətini anlayaraq təslim olur və ya mövqelərini tərk edirlər. Bu isə artıq Ermənistanın sonunun yaxınlaşması anlamını daşıyır - əlbəttə ki, nə qədər gec deyilsə İrəvan hələ 44 günlük müharibə zamanı boş qalmış minlərlə əsgər dəbilqələrindən birini qarşısına qoyub düşünüb, daşınıb nəticə hasil etməlidir. Amma hasil edə biləcəkmi, yaxud buna zamanı qalacaqmı? Axı ötən bir ildə onun kifayət qədər zamanı var idi, fəqət bu zamandan da istifadə etməyi bacarmadı. Boş-boş bəyanatları və xarici ölkələrə ümidlərini bəsləməsi ilə bax hazırda növbəti fiaskosunu yaşamaq məcburiyyətindədir. Olan-olmalı idi və olur da!

# "Ermənistan Qarabağda Azərbaycanı xatırladan hər şeyi yer üzündən silməyə çalışıb"

***Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edən Pakistanın HUMnews xəbər kanalının müxbiri Nəbiyə Şahid "Caliber" analitik mərkəzinə müsahibəsində Azərbaycana səfərinin təəssüratlarını danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Azərbaycana səfərinizlə bağlı təəssüratlarınız necədir?*

- Azərbaycanın Pakistandakı səfirliyi tərəfindən erməni işğalından azad edilmiş ərazilərə səfər etmək üçün dəvət almışam. Bu səfər mənə ümid verdi ki, bir gün Cammu və Kəşmirlə də eyni şeyi görəcəyəm.

Azərbaycan dünyanın ən gözəl ölkələrindən biridir. Şuşada, Gəncədə, Ağdamda oldum. Məni kədərləndirən dağıntılarla yanaşı, orada mənzərəli gözəlliyi də görə bildim. Xüsusilə Şuşa çox xoşuma gəldi. Bu şəhər mənim qəlbimdə xüsusi yer tutub.

İşğal olunmuş ərazilərin erməni işğalından azad edilməsi Azərbaycanın möhtəşəm qələbəsidir. İşğal illərində Azərbaycan torpaqlarının nələrə çevrildiyinin acınacaqlı mənzərəsini müşahidə edərək anladım ki, Ermənistan azərbaycanlıların bu torpaqlarda qalmasının tarixi-mədəni izlərini məhv etməyə çalışır.

Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa da əziyyət çəkdi. Ağdamda dağıdılmış məscid və çörək muzeyi gördüm. Erməni vandalizminin belə mənzərəsini görmək çox dəhşətlidir. Adamda belə bir təəssürat yaranır ki, Ermənistan Azərbaycanı xatırladan hər şeyi yer üzündən silməyə çalışır. Mən çox şadam ki, Azərbaycan hər şeyə rəğmən pozulmuş ədaləti bərpa edə bildi.



*- Azərbaycanda sizi nə təəccübləndirdi?*

- Ən çox Azərbaycan xalqının Pakistana göstərdiyi hörmət və sevgi məni təəccübləndirdi. Və çox xoş sürpriz oldu. Mən azərbaycanlıların Pakistana necə böyük hörmət və sevgi ilə yanaşdığını yerində gördüm. Diqqət yetirdiyim ən maraqlı faktlardan biri də Pakistan-Azərbaycan əlaqələrindən hər bir azərbaycanlının xəbərdar olması oldu.

Yadımdadır, məni azərbaycanlı ailəyə qonaq dəvət etmişdilər, sonra maşınla otelə qədər aparmışdılar. Azərbaycan xalqı öz qonaqpərvərliyi və istiqanlılığı ilə mənim qəlbimi fəth etdi.

Məni həm də xoş təəccübləndirdi ki, hər bir azərbaycanlı öz tarixi və mədəni mənşəyini yaxşı bilir. Azərbaycanlılar dostunun, düşməninin kim olduğunu yaxşı bilirlər.

Səfər boyu kiminsə məni incidə biləcəyindən bir an belə narahat olmamışam. Gecə gec də olsa, özümü qorunmuş hiss edərək Bakının küçələrində gəzirdim.

*- Azərbaycanlılarla pakistanlılar arasında oxşar cəhətlər varmı?*

- Əvvəla, dillərimiz oxşardır. Bu iki dil oxşar sözləri daşıyır, ona görə də ünsiyyət qurmaq daha asan idi. Pakistan və Azərbaycanda oxşar qonaqpərvərlik və qonaqlara hörmət mədəniyyəti var. Azərbaycan mətbəxi demək olar ki, bizim mətbəximizlə eynidir, bir fərqlə ki, sizdə duz daha çoxdur, bizdə isə ədviyyatlar çoxdur.

Digər ümumi cəhət ondan ibarətdir ki, Pakistanda olduğu kimi, Azərbaycanda da çay içməyi sevirlər. Pakistan çayı çay, süd və şəkərin qarışdırılması deməkdir. Digər tərəfdən, Azərbaycan çayına süd qatılmır və o, bizim yaşıl çaya yaxındır.

***Tərcümə - Elçin Bayramlı***

# SƏRHƏDDƏ ERMƏNİSTANIN TƏXTİBATI NƏYƏ HESABLANIB?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

## İqor Korotçenko: "Bu, çox təhlükəli vəziyyət idi, lakin Azərbaycan hərbçilərinin və Rusiya sülhməramlılarının təmkinliliyi sayəsində mənfi ssenari ilə nəticələnmədi"



***Rusiya politoloqlarından, Dövlət Dumasının deputatlarından, ictimai xadimlərdən ibarət nümayəndə heyəti bu günlərdə Azərbaycandadır. Nümayəndə heyəti Bakıda və Şuşada Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafına və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı regiondakı vəziyyətə həsr olunmuş konfranslarda iştirak edib.***

Şənbə günü Rusiya nümayəndə heyətinin Şuşaya getdiyi Laçın dəhlizində erməni radikalı Azərbaycan postuna qumbaraatan atıb, nəticədə 3 hərbçi yaralanıb. Yaxınlıqda Rusiya sülhməramlılarının postu da olub və onlar yaraqlını saxlayıblar.

Bir neçə gündür ki, Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında insidentlər baş verir, Ermənistan silahlı qüvvələri Azərbaycan mövqelərini atəşə tutur. "Milli müdafiə" jurnalının baş redaktoru, politoloq İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində terror aktı, Ermənistan-Azərbaycan münaqişəsi zonasında növbəti gərginlik dalğası, Ermənistanda müdafiə nazirinin dəyişməsi və Rusiya nümayəndə heyətinin Azərbaycana səfəri barədə maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

***- İqor Yuryeviç, vəziyyətin bu açıq-aşkar dəyişməsində məqsəd nədir?***

- Düşünürəm ki, bu, müəyyən dərəcədə aqoniyadır və rəsmi İrəvanın üçtərəfli bəyanatla bağlı öhdəliklərini yerinə yetirə bilməməsinin göstəricisidir. Hərbi təxribatlar, top atəşləri, qeyri-sabitlik onun nəticəsidir ki, Ermənistan müharibədə uduzduğundan bir il sonra heç bir konstruktiv gündəm təklif edə bilmir, əksinə təxribat, hədə-qorxu, terror aktları və təbliğat ittihamları kimi çirkin təcrübəni davam etdirir. Əslində bu, onun öz gücsüzlüyünə bir imzadır.

Terror aktı Rusiya nümayəndə heyətinin və Şuşaya getdiyimiz konfrans iştirakçılarının bu keçid məntəqəsindən keçməsindən bir neçə saat əvvəl həyata keçirilib. Mövzu, yeri gəlmişkən, tamamilə dinc xarakterli idi- biz regionda sabitliyin, sülhün və harmoniyanın yollarını müzakirə etdik. Konfrans başlamazdan əvvəl belə bir terror aktı baş verdi.

Biz bilirik ki, baş nazir Nikol Paşinyanın günahı ucbatından Rusiya, Azərbaycan və Ermənistan liderlərinin noyabrın ilk ongünlüyünə planlaşdırılan və çoxlu ümidlərin bağlandığı sammiti pozuldu. Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev bu sammitə hazır idilər. Ancaq Paşinyan bunun hətta videokonfrans vasitəsilə də baş verməməsi üçün hər şeyi etdi,. Beləliklə, Ermənistanın baş naziri İrəvanın Ermənistan-Azərbaycan nizamlanması üzrə öhdəliklərini yerinə yetirmədiyini təsdiqləyib. Ermənistan bu gün adekvat davranmaq iqtidarında deyil.

***- Rusiya terrora daha sərt cavab verməli deyildimi? Yenə də ictimai qınaq və ya narahatlıq eşitməmişik. Yoxsa qınama olub, amma bağlı qapılar arxasında?***

- Əminəm ki, Rusiya və Azərbaycanın xarici işlər nazirlikləri, eləcə də ölkələrin hüquq-mühafizə orqanları arasında baş verənlərlə bağlı xüsusi xidmət orqanları məsləhətləşmələr aparır. Bu cür məsləhətləşmələr, təbii ki, qeyri-ictimai formatda keçirilir. Bunun həlli yollarını axtarmaq lazımdır. Bu gün baş verən vəziyyət Ermənistandan başqa heç kimə yaraşmır. Rusiya üçün regionda sabitlik, proqnozlaşdırıla bilənlik və inkişaf vacibdir. Rusiya üçün Cənubi Qafqaz kimi mühüm və həssas ərazidə bizə qaynar nöqtə, gərginlik ocağı lazım deyil.

***- Terror aktı növbəti dəfə, lakin indi çox yüksək səslə qeyri-qanuni erməni birləşmələrinin Qarabağdan çıxarılmaması problemini ortaya qoydu. Və bu vəziyyət artıq son həddinə çatır. Radikal elementlər təkcə Azərbaycan hərbçiləri və mülki şəxsləri üçün deyil, həm də Rusiya sülhməramlıları üçün böyük təhlükə yaradır...***



- Nikol Paşinyan üçtərəfli bəyanata uyğun olaraq, Qarabağdan qanunsuz silahlı birləşmələrin çıxarılması ilə bağlı öhdəlik götürüb. Bu öhdəlik yerinə yetirilməyib. Erməni silahlı separatçılarının geri çəkilməməsi qeyri-sabitliyin əsas amillərindən biridir. Hücumun Laçın dəhlizində baş verdiyini görürük. Və bu əlavə olaraq təhlükə yaradır. Düşünürəm ki, terror aktının məqsədi təkcə Azərbaycan hərbçilərinə qumbara atmaq deyildi, əslində bu, yaxınlıqda olan Rusiya sülhməramlılarına qarşı terror aktıdır. Mən bu keçid məntəqəsindən keçdim. Laçın dəhlizində Azərbaycan və Rusiya hərbçiləri arasında məsafə təxminən 5-8 metrdir. Vəziyyət başqa cür inkişaf etsə, Rusiya sülhməramlıları da zərər çəkə bilər. Əslində bu, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatına qarşı terror aktıdır.

Bundan əlavə, hücumun məqsədi sadəcə adam öldürməyə cəhd deyil, Azərbaycan hərbçilərini, bəlkə də Rusiya sülhməramlılarını belə fors-major şəraitdə atəş açmaq, öldürmək üçün təhrik etmək istəyi olub. Və sonra bir neçə tərəfdən qurbanlar ola bilər. Belə olan halda Ermənistan öz təxribatının bəhrəsini götürəcəkdi - terrorçu az qala qurban kimi qiymətləndiriləcək, hadisə isə "Azərbaycan təxribatı" olacaqdı. Deməli, erməni agitprom bütün bunları bizə verəcəkdi. Bu, çox təhlükəli vəziyyət idi və təkcə Azərbaycan hərbçilərinin və Rusiya sülhməramlılarının təmkinliliyi sayəsində son dərəcə mənfi ssenari ilə nəticələnmədi.

Hesab edirəm ki, bu terror aktının istintaqı bütün tərəflərin iştirakı ilə aparılmalıdır. Terrorçu Rusiya Baş Prokurorluğuna və ya Azərbaycan Baş Prokurorluğuna təhvil verilməlidir. Yaxud birgə istintaq qrupu hadisəni araşdıra bilər. Yenə də bu iş son dərəcə təhlükəlidir, çünki terrorçular tərəfindən Laçın dəhlizində analoji terror aktlarının katalizatoruna çevrilə bilər. Heç kim radikalların onsuz da daha böyük terror aktı törətmək üçün kamikadzedən istifadə edə biləcəyi ehtimalını istisna etmir. Biz görürük ki, İrəvanda radikallar Rusiya əleyhinə mitinqlərə, üçtərəfli bəyanata qarşı mitinqlərə necə çıxırlar, necə anti-Rusiya şüarları səsləndirirlər. Laçın dəhlizi ilə hərəkət edən erməni nömrəli avtomobillər artıq istədikləri hər şeyi daşıya bilmələri baxımından təhlükə yaradır.

Yeri gəlmişkən, məncə, Paşinyan bu terror aktını pisləmək mövqeyindən çıxış etməli idi.

***- Bu gün Ermənistanda yeni müdafiə naziri təyin edilib. Bu, baş nazirin müavini, 35 yaşlı Suren Papikyandır. Bu, müharibədən 1 il sonra Ermənistanın 4-cü müdafiə naziridir. Bundan əlavə, bu gün mətbuatda Ermənistan Baş Qərargahının rəhbəri Artak Davtyana qarşı keçmiş müdafiə naziri David Tonoyanla birgə keyfiyyətsiz silahların tədarükü ilə bağlı cinayət işi açıldığı xəbəri yayılıb... Paşinyan baş verənləri Azərbaycan qoşunlarının ölkəyə daxil olması ilə izah edib.***

- Bütün bunlar Ermənistanda gedən daxili siyasi mübarizənin əksidir. Bankada hörümçəklər bir-birini yeyirlər- bu gün Ermənistanda baş verənlər belədir. Kadr qərarları, istənilən bəyanatlar, hər hansı şərhlər hakimiyyət uğrunda daxili mübarizənin və Paşinyanın hər vasitə ilə qalmaq istəyinin, o cümlədən Ermənistanda repressiyanın təşkilinin təzahürüdür. Təbii ki, Paşinyan açıq şəkildə cəzalandıracaq.

***- Hazırda Rusiya nümayəndə heyətinin tərkibində Azərbaycandasınız. İşğaldan azad edilmiş ərazilərdə - Şuşada, Füzulidə yenidən oldunuz. Rusiya nümayəndə heyətinin səfərini necə qiymətləndirirsiniz?***

- Təbii ki, Rusiya nümayəndə heyətinin- parlamentarilərin, ictimai-siyasi xadimlərin Azərbaycana və xüsusən də işğaldan azad edilmiş ərazilərə səfəri çox vacibdir. Çünki biz Ermənistanın işğalının nəticələrini öz gözlərimizlə görürük və azərbaycanlı həmkarlarımızla regionun inkişafını, ikitərəfli münasibətləri müzakirə edə bilərik.

Mən Şuşaya ikinci dəfə səfər etdim. Bu dəfə mən Heydər Əliyev Fondunun Şuşada milli mədəniyyət ocaqlarının və ziyarətgahların bərpasının ən yüksək keyfiyyət və inanılmaz sürətlə həyata keçirildiyini gördüm. Artıq çox şey bərpa olunub. Bu, Şuşanın tezliklə dirçələcəyinə və Azərbaycan mədəniyyətinin milli rəmzlərinin, Azərbaycan xalqının ruhunun qorunub saxlanması baxımından Azərbaycanın zəfərinə çevriləcəyinə sübutdur. Və əminliklə deyə bilərik ki, Azərbaycan xalqının nəinki mədəni irsi, hətta dünya əhəmiyyətli şah əsərləri onlara vurulmuş dəhşətli dağıntılardan sonra bərpa olunur.

İşğaldan sonra Şuşada hər şey dağıdılıb. Yalnız son dövrdə ermənilərin yaşadıqları, Sovet dövründə tikilmiş 5 mərtəbəli binalar toxunulmaz qalmışdır. Məscidlər dağıdılıb və təhqir olunub. Mən aşağı məsciddə idim- orada işğalçılar tərəfindən dini təhqir edən simvollar çəkilib.

Şuşada Rusiya nümayəndə heyəti "Qafqaz regionunda sülhün möhkəmləndirilməsi problemləri" adlı konfransda iştirak edib. Bu, Azərbaycanın mədəniyyət paytaxtında Dövlət Dumasının deputatlarının, Azərbaycan parlamentinin deputatlarının, ictimai-siyasi xadimlərin iştirakı ilə keçirilən bu səviyyəli ilk beynəlxalq konfransdır. Ümid edirik ki, konfrans həm də Cənubi Qafqazda sülhün bərqərar olması üçün konkret yolların axtarışına mühüm töhfə verəcək.

Mən yenidən Şuşada olanda Azərbaycanın xüsusi təyinatlı 300 əsgərinin bütün silah-sursatını götürərək sıldırım qayalara dırmaşaraq, dağlıq və meşəlik ərazilərdən misli görünməmiş yürüş edərək onun azad edilməsi üzrə apardığı, indi əfsanəvi sayılan əməliyyatın nə demək olduğunu bir daha gördüm. Onlar bölgədə piyada döyüşə girərək, demək olar ki, əlbəyaxa döyüşdə qalib gəldi, tanklar, artilleriya və reaktiv yaylım atəşi sistemləri ermənilərin tərəfində olduğu halda. Ermənistan əsas qüvvələri, texnikası Xankəndi yaxınlığında idi, buradan da ermənilərin imkanları daim artırılırdı. Və Azərbaycan xüsusi təyinatlılarının bu sıx təmas döyüşündə qələbə qazanması misilsizdir. Bu, hələ də tədqiqatçılarını gözləyən inanılmaz bir əməliyyatdır. Və mən ona bəzi materiallar həsr etməyi planlaşdırıram. O, şübhəsiz ki, diqqətlə təhlilə layiqdir və bu cür əməliyyatların effektiv həyata keçirilməsinin ən bariz nümunəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin ağlını, istedadını, tarixi uzaqgörənliyini ancaq alqışlamaq olar. Təbii ki, o, beynəlxalq siyasətçidir. Azərbaycanın son illər inkişaf yolu, 44 günlük müharibə şəraitində BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxındır icra olunmayan qətnamələrini yerinə yetirməsi hörmətə layiqdir. Azərbaycanın 2-ci Qarabağ müharibəsində qələbəsi əlamətdar beynəlxalq hadisədir.

Bakıda Şuşaya getməzdən əvvəl biz "Rossotrudniçestvo"nun ofisində Azərbaycan-Rusiya münasibətlərinin hazırkı mərhələdə inkişafına dair dəyirmi masa keçirdik. Onun çərçivəsində biz Rusiya ilə Azərbaycan arasında mədəni-humanitar əlaqələrin inkişafının vacibliyini vurğuladıq, Azərbaycanın rus icmasının nümayəndələrinin, o cümlədən gənclərin suallarını cavablandırdıq. Rus icması Azərbaycan Respublikasında özünü əla hiss edir. Biz baş tutan ünsiyyətdən və çox səmimi qarşılanmadan çox məmnunuq. Azərbaycanda Rusiyaya münasibət mehribandır, xoşdur.

Bakı möhtəşəm şəhərdir, hər il hər şey daha da gözəlləşir. Bu, ən müasir qabaqcıl arxitekturanın və xüsusi maraq doğuran milli köhnə tikililərin ehtiyatla qorunub saxlanılmasının tamamilə unikal birləşməsinə malik olan Xəzər Dubayıdır. Şəhərin rəngi tamamilə valehedicidir. Əla sahil, müasir otellər. Bakı Azərbaycanın müasir inkişafının simvoludur.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
17 noyabr
2021-ci il

# Messi Braziliyaya qarşı oynayacaq?




Futbol üzrə Argentina millisinin futbolçusu Lionel Messi DÇ-2022-nin seçmə mərhələsində Braziliyaya qarşı oynaya biləcək.

Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, bu barədə yığmanın baş məşqçisi Lionel Skaloni məlumat verib. O, 34 yaşlı oyunçunun sözügedən görüşdə iştirak edəcəyini təsdiqləyib.

Qeyd edək ki, Messi bundan əvvəl Uruqvayla matçda yalnız 76-cı dəqiqədə meydana daxil olmuşdu. O, milli komandaların oyunları ilə əlaqədar fasiləyə qədər zədə səbəbindən PSJ-nin bir neçə matçını buraxıb. Qeyd edək ki, Argentina - Braziliya qarşılaşması bu gün keçiriləcək.

# Kraliça II Elizabet belindən zədə alıb

**Kraliça II Elizabet Birinci Dünya müharibəsində həlak olanların anım mərasimində iştirak edə bilməyib. Belə ki, 95 yaşlı Kraliça belindən zədə aldığı üçün anım mərasiminə qatılmayıb.**

Bukinqem sarayından edilən açıqlamada bildirilib ki, Kraliça belindən zədə alıb və böyük kədər hissi ilə Senetafdakı Memorialda iştirak edə bilməyəcəyinə qərar verib. Kraliça taxtda olduğu illərdə cəmi 6 dəfə mərasimə qatıla bilməyib. Qeyd edək ki, hər ilin noyabrında Britaniyada Birinci Dünya müharibəsi qurbanlarının xatirəsi anılır.



# Fil saatlarca yeri qazdı



Hindistanın şimal-şərqində baş verən hadisə eşidənləri çox təsirləndirib. SİA xarici mətbuata istinadən xəbər verir ki, 60 fildən ibarət nəhəng sürüsü boş ərazilərdən keçərkən, bir fil Çatra kəndində dayanıb və yeri qazmağa başlayıb. Düz 11 saat ərzində heç bir kənd sakinini yaxın buraxmayan filin qazdığı çuxurdan çıxan fil balası kənd sakinlərini hönkür-hönkür ağladıb.

# İnfeksiyalara qarşı dözümlü bildirçin yumurtası



Toyuq yumurtasından üç-dörd qat daha yüksək qida dəyərinə malik bildirçin yumurtası kiçik ölçülü olmasına baxmayaraq, vitamin və minerallarla zəngindir. Onun mütəmadi istehlakı müəyyən xəstəliklərin profilaktikasında müsbət rol oynayır. Həmin yumurtanın istehlakı orqanizmdə hər hansı bir diatez və allergik əlamətlərə səbəb olmur.

AZƏRTAC tibbi mənbələrə istinadla xəbər verir ki, bildirçin quşunun bədən hərarəti həmişə 42 dərəcə C olduğundan müxtəlif infeksiyalara qarşı dözümlüdür və yeganə quşdur ki, patogen mikroorqanizm olan Salmonella virusuna yoluxmur. Ona görə də ondan çiy halda da istifadə etmək olar.

D vitamini ilə zəngin olan yumurta sümüklərin kövrəkliyinin qarşısını alaraq onları gücləndirir. Tərkibində mövcud olan A vitamini isə görmə və göz sağlamlığının qorunmasında olduqca müsbət təsirə malikdir. Bu, kataraktanın inkişafının qarşısını almağa kömək edərək görmə qabiliyyətini yaxşılaşdırır. Tərkibindəki B qrup vitaminləri hormonal və fermentativ funksiyalar da daxil olmaqla bədəndəki bütün metobolik aktivliyin sürətləndirilməsində böyük rol oynayır. Bildirçin yumurtasının tərkibində A və C vitaminləri sərbəst radikalları zərərsizləşdirməklə insan sağlamlığını qorumağa kömək edir.

Bildirçin yumurtaları qırmızı qan hüceyrələrinin əmələ gəlməsində xüsusi rola malik dəmirlə zəngin olduğundan qan azlığının və anemiyanın qarşısını alaraq xəstəliyə tutulma riskini minimuma endirir.

Antiallergik məhsul hesab edildiyindən allergiyadan əziyyət çəkənlərin bildirçin yumurtası istehlakı tövsiyə edilir. O, toyuq yumurtaları ilə müqayisədə kaliumla daha çox zəngindir. Qan təzyiqini normaya salaraq damarların genişlənməsinə səbəb olur və bunun nəticəsində stress və gərginlik aradan qalxır. Yumurtanın tərkibində olan fosfor isə zehnin inkişafını stimullaşdırır, yaddaşı yaxşılaşdırır. Xüsusilə uşaq və yeniyetmələrin inkişafında vacib qidadır. Bildirçin yumurtası həm də böyrək, qaraciyər, öd kisəsinin düzgün fəaliyyətini təmin edən faydalı qidalardandır. Tərkibindəki lesitin vasitəsilə daşların böyüməsinin qarşısını alır, onların parçalanmasına kömək edir.

# “Nar”ın dəstəyi ilə qəhrəman müəllimlər haqqında kitab çap edildi



“Nar”ın Zəfər Gününə həsr etdiyi "Yaşa, Vətən!" kommunikasiyasının davamı olaraq, 44 günlük Vətən müharibəsində iştirak etmiş müəllimlərin qəhrəmanlıqlarından bəhs edən "Qazi müəllimlər" kitabının təqdimatı olub. Mobil operatorun dəstəyi ilə çap edilən kitabda Vətən müharibəsindən sonra "Qafqazinfo" xəbər portalının "Qəhrəman müəllimlərimizi tanıyaq" layihəsi çərçivəsində hazırladığı 38 reportaj toplanıb. Qeyd edək ki, xəbər saytının Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə birgə hazırladığı bu yazılar cəmiyyətdə böyük marağa səbəb olub və şagirdlərin hərbi vətənpərvərlik ruhda yetişməsinə töhfə verib.

Kitab ilkin olaraq 2000 tirajla, təxminən 150 səhifə olmaqla, 4 rəngdə nəfis şəkildə Türkiyədə nəşr olunub. Kitabın ödənişsiz olaraq həm Bakı şəhəri üzrə, həm də ölkənin digər məktəblərinə paylanılması nəzərdə tutulur. Qeyd edək ki, layihənin məqsədi qazi müəllimlərimiz haqqında məlumatın geniş yayılması və onların şücaətinin gələcək nəsillərin tərbiyəsinə töhfə verməsidir.

"Nar"ın ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundov bildirib ki, "Nar"ın kitabın çapına dəstək olmaqda məqsədi qazi müəllimlərimizin igidlikləri və döyüş yolunu hər kəsə çatdırmaqdır: "Nar" olaraq, Vətən müharibəsinin qəhrəman simalarının təşviqinə dəstək olmaq bizim üçün qürurdur. Bu kitabda qəhrəmanlıq hekayəsini oxuduğumuz hər bir müəllimin sinif otaqlarına geri dönüb vətənpərvər, savadlı, cəmiyyət üçün faydalı şəxsiyyətlər yetişdirəcəyindən əminik".

"Qafqazinfo" xəbər portalının baş direktoru Elbrus Ərud çıxışı zamanı vurğulayıb ki, 38 müəllim yazdığı bu tarixi salnamə ilə məktəblilərin gerçək qəhrəmanlarına çevrilib: "Adətən şagirdlərin ilk tanış olduğu nağıl qəhrəmanlarıdır, onların çoxu da xalqın təfəkküründə uydurulmuş mifik obrazlardır. Bu şagirdlərin xoşbəxtliyi ondadır ki, həmin qəhrəmanlar onların auditoriyasındadırlar. Bu müəllimlərin hər biri artıq öz sözlərini demiş insanlardır".

Qeyd edək ki, "Nar"ın layihələri haqqında daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**